# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

№ 057 (7225)

9 aprel 2025-ci il.
Qiymәti 60 qәpik


## Böyük Qayıdış: Suqovuşana növbəti köç



10

# İnsan amilinə söykənən uğurlu sosial siyasət!



3

**Prezident İlham Əliyev: "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir"**

# Siyasət okeanında Türkiyə aysberqi

Ankara bu gün beynəlxalq arenada ən fəal oyunçulardan biridir



4

## Türkiyəli ekspert: "Qarabağ Azərbaycanın mədəniyyət, sənaye və turizm mərkəzidir"



2

## Çinin "Orta Dəhliz" marağı



8

## Avropada islamofobiya BMT-ni narahat etməyə başlayıb




13

## Maşınını səkidə saxlayanlara XƏBƏRDARLIQ - 60 manat və 2 bal CƏRİMƏ...



16

# Tramp mifi "əriyir"...



5

# "İran Azərbaycanla münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlıdır"

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib. Prezident İlham Əliyev son dövrlərdə Azərbaycanın və İranın yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edərək, bunun ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə və ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını dedi.***

Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirdi və Komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd etdi.

Qonaq ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğuladı.

Qonaq qeyd etdi ki, İran Prezidentinin ölkəmizə planlaşdırılan səfəri öncəsi Hökumətlərarası Birgə Komissiyanın iclasının keçirilməsi gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Müstəqilliyimiz əbədidir: İslam dininin, "Qurani-Kərim"in Azərbaycan xalqı üçün açdığı yol davam edəcək

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 6-cı kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1994-cü il dekabrın 11-dən 1995-ci il martın 8-dək olan dövrü əhatə edir. Kitaba Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib. Nəşrdəki materiallarda Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesindən, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrindən, xarici ölkələrlə əlaqələrin genişləndirilməsindən bəhs olunur.




Bu kitabda Ulu Öndər Heydər Əliyevin İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatının) Kasablankada 7-ci Zirvə toplantısı çərçivəsində keçirdiyi çoxsaylı görüş və çıxışları, müsahibələri yer alıb. Məsələn, 1994-cü il dekabrın 11-də Zirvə toplantısına yola düşərkən Bakıda hava limanında jurnalistlərlə görüşən Ümummilli Lider İƏT-in fəaliyyətini yüksək qiymətləndirərək demişdi: "İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edir. Onların 1 milyarddan artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək, həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər".

Görkəmli dövlət xadimi Heydər Əliyev 1994-cü il dekabrın 13-də Zirvə toplantısında söylədiyi nitqdə İslam dünyasının bəşər sivilizasiyasına layiqli töhfələr verdiyini qeyd edib, müsəlman ölkələrinin inkişafına mane olan problemlərin aradan qaldırılmasının vacibliyini vurğulayaraq deyib: "İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir. Viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadır və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməli, öz səylərimizi göstərməliyik. Bunun naminə müsəlman ölkələrinin inkişafına mane olan əngəllər aradan qaldırılmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik".

Qeyd edək ki, Zirvə toplantısının yekun iclasında Asiya dövlətləri adından təbrik nitqini də görkəmli dövlət xadimi Heydər Əliyev söyləyib. Həmin Zirvə görüşünün yekun sənədinə Ermənistanın Azərbaycana qarşı təcavüzünü ittiham edən bəndlər (Yekun Kommünikenin 68-71-ci bəndləri) salınıb. Bu bəndlərdə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı təcavüz edildiyini qəbul etməyə və buna qarşı öz Nizamnaməsinə uyğun olaraq müvafiq tədbirlər görməyə çağırılıb.

Bu kitabda Ümummilli Liderin böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin 85 illiyinə həsr edilmiş tədbirdə söylədiyi nitqi də verilib. Ulu Öndərin bu nitqi həm də onun incəsənətin rəssamlıq qolunu necə dərindən bildiyini göstərir: "Onun yaratdıqları adi rəsm əsərləri deyildir. Səttar Bəhlulzadə yaradıcılığa klassik üslubdan başlayıb - biz sərgidə bunun nümunəsini gördük, sonra isə özünəməxsus, öz aləminə, öz dünyasına, öz fəlsəfəsinə məxsus bir rəssamlıq yolu seçib və həmin yola daim sadiq olubdur. O vaxtlar - 50-ci, 60-cı illərdə, yəni Səttar Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər. Bəziləri isə bu əsərlərin nə qədər qiymətli olduğunu bilmirdilər. Ona görə də bəzən klassik üslubda çəkilən əsərlərə üstünlük verilirdi, Səttar Bəhlulzadənin əsərləri isə kənarda qalırdı. Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaratdığı üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi".

Dahi rəhbər Heydər Əliyev gərgin iş qrafikinə baxmayaraq, ölkənin mədəni həyatını həmişə diqqətində saxlayırdı, bununla bağlı bir sıra tədbirlərdə şəxsən iştirak edirdi. Belə tədbirlər sırasında Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışını və ədibin 125 illiyinə həsr edilmiş mərasimi də qeyd etmək olar. Tədbirdə çıxış edən Ulu Öndər Heydər Əliyev Cəlil Məmmədquluzadənin əsərlərini yüksək qiymətləndirmiş, "Ölülər" pyesinin aktuallığına diqqət çəkərək demişdi: "Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, "Qurani-Kərim"in Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə beləlri ilə o vaxt mübarizə aparıb və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik".

Oxucu bütün bu çıxışların mətnləri ilə çoxcildliyin 6-cı kitabında tanış ola bilər.

Nəşrdə Ümummilli Liderin aqrar bölmədə islahatlara həsr olunmuş respublika müşavirəsində söylədiyi nitqin, habelə "Reklamnıy Vestnik"in müxbirinə müsahibəsinin mətnləri də yer alıb. Bu cilddə, həmçinin Azərbaycan dövlətinin möhkəmləndirilməsi, ölkənin bazar iqtisadiyyatına keçid dövründə yaranmış çətinliklərin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün bərpası üçün ölkə rəhbərinin beynəlxalq aləmdə apardığı intensiv danışıqlara, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başlıca istiqamətlərinə dair materiallara geniş yer verilib. Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur. Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.



## Türkiyəli ekspert: "Qarabağ Azərbaycanın mədəniyyət, sənaye və turizm mərkəzidir"

"Qarabağ Azərbaycanın mədəniyyət, sənaye və turizm mərkəzidir. Hazırda dünyada müxtəlif siyasi və iqtisadi güc mərkəzləri mövcuddur. Qarabağın uzun müddət işğal altında qalması Cənubi Qafqaz regionunda qeyri-sabitliyə səbəb olub. Hazırda Azərbaycan öz ərazi bütövlüyünü bərpa edən güclü bir dövlətdir." Bunu Türkiyə Prezidentinin baş müşaviri Çağrı Erhan aprelin 8-də Xankəndidə keçirilən 7-ci ADA Siyasi Forumu çərçivəsində "Geosiyasi dəyişikliklər və onların regional suverenliyə təsiri" mövzusunda paneldə çıxışında deyib.

"Türkiyə bu mənada hər zaman Azərbaycanın mövqeyini dəstəkləyib. Türkiyə regionda sülhün və sabitliyin möhkəmləndirilməsində maraqlıdır. Əlbəttə ki, Qarabağın işğaldan azad olunması təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın inkişafına mühüm töhfələr verəcək", - deyə Çağrı Erhan vurğulayıb.

Azərbaycanın Cənubi Qafqaz regionunda öz maraqları çərçivəsində siyasət yeridən ölkə olduğunu diqqətə çatdıran Çağrı Erhan bildirib ki, Türkiyə Azərbaycanın bu istiqamətdəki siyasi gedişlərini dəstəkləyir.

# İnsan amilinə söykənən uğurlu sosial siyasət!

## Prezident İlham Əliyev: "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir"



Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Uğurlu daxili və xarici siyasət sayəsində dövlətçilik ənənələri möhkəmlənib və iqtisadiyyat dinamik inkişaf edib. Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb. Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 21 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Dövlətimizin başçısının ölkəyə rəhbərliyi dövründə hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. 23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılıb. Artım təxminən 14-15 faizdir.

### SOSİAL ƏDALƏT VƏ HUMANİZM PRİNSİPLƏRİ

Bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.

"Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun" - deyən Prezident bildirib ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün: "Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur". Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində kifayət qədər tədbirlər realaşıb.

### "MÜHARİBƏNİ ŞƏHİDLƏRİMİZİN CANI-QANI BAHASINA, HƏRBÇİLƏRİMİZİN RƏŞADƏTİ HESABINA, DÖVLƏTİMİZİN SİYASƏTİ HESABINA QAZANMIŞIQ"

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlarla cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram daim genişlənir, postmüharibə dövründə isə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin ölkə Prezidentinin daim diqqət mərkəzində olduğunu və onların yüksək qayğı ilə əhatə olunduqlarını bir daha göstərir. "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam həmin maliyyələşdirmə müddətinin uzadılmasını nəzərdə tutur. Bu məqsədlə əvvəlki Sərəncamın 1-ci hissəsindəki "2022-ci və 2023-cü" sözləri "2022-2025-ci" sözləri ilə əvəz edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərir. Onların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar reallaşır. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir" - deyə Prezident bildirib.

44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların məşğulluğuna dəstək işləri də aparılır.

Cənab Prezident çıxışlarının birində vurğuladığı kimi, "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq". Bu gün vətən torpaqlarının azad olunmasında sağlamlığını itirənlər və şəhid olanların ailələri dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Azərbaycan dövləti və xalqı üçün əlbəttə ki, hər bir hərbçi əzizdir və dəyərlidir.

### SOSİAL DƏSTƏK PAKETİ 131 MİN ŞƏXSİ ƏHATƏ EDİB

Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 131 min şəxsə 378 min xidmət göstərilib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,7 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6,8 min mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567 avtomobil təqdim edilib. 11 min şəxsə 75 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Bütün bunlarla yanaşı, müharibə ilə əlaqədar əlilliyi olan 2291 şəxs 68 min reabilitasiya vasitəsi, o cümlədən 491 şəxs 608 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 26 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,4 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Ümumilikdə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 131 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 378 min xidmət göstərilib.

Təbii ki, bu işlərin də müəllifi, həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevdir. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Bunun mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Siyasət okeanında Türkiyə aysberqi

## Ankara bu gün beynəlxalq arenada ən fəal oyunçulardan biridir



Artıq üç həftədir ki, dünya ictimaiyyətinin diqqəti Türkiyədə müxalifətin prezident Rəcəb Tayyib Ərdoğana qarşı kəskin fəallaşan etiraz aksiyaları ilə bağlı hadisələrə yönəlib. Lakin turbulentlik Türkiyə cəmiyyətinin təbii vəziyyətidir: ölkə sürətlə inkişaf edir, siyasi səhnəyə yeni ictimai qüvvələr, yeni xarizmatik liderlər çıxır, əvvəllər passiv olan sosial təbəqələr fəallaşır. Dini fundamentalistlər və dünyəvi hakimiyyətin tərəfdarları arasında daim mövcud olan daxili sivilizasiya parçalanması da böyük əhəmiyyət kəsb edir. Onu da unutmaq olmaz ki, ölkənin cənub-şərqində müstəqil dövlət yaratmaq uğrunda mübarizə aparan Kürdüstan Fəhlə Partiyasının tərəfdarlarının fəaliyyəti ilə bağlı amansız və qanlı qarşıdurma ocağı alovlanmaqda davam edir. Əlavə etmək lazımdır ki, sürətlə inkişaf edən Türkiyə iqtisadiyyatı inflyasiya və getdikcə oliqarxik elitanı əhalinin geniş kütlələrindən ayıran artan sosial differensasiya ilə üzləşir.

Regional fərqlər də var: ölkənin daha mühafizəkar Şərqi Anadolu hissəsi ilə 35 milyonluq İstanbul arasında. Məhz bu aqlomerasiya 30 il əvvəl o vaxt İstanbul bələdiyyə sədri postunu tutan indiki prezident Ərdoğanı Türkiyə siyasi olimpinin zirvəsinə çıxardı. Təbii ki, sual yaranır ki, niyə məhz bu şəhər indi Özgür Özəlin rəhbərlik etdiyi müxalif Cümhuriyyət Xalq Partiyasının Ərdoğan əleyhinə etirazlarının əsas mərkəzinə çevrilib? Bu suala cavab axtararkən xarici siyasət amillərinə, xüsusən də Ukrayna ətrafında başlayan danışıqlar prosesinə müraciət etməyə dəyər. ABŞ-ın yeni administrasiyası və Avropa İttifaqının Ukrayna nizamlanmasına təzadlı yanaşmaları getdikcə aydınlaşdıqca, Fransa, Böyük Britaniya və Almaniya liderlərinin sülh sazişinin imzalanmasından sonra "Ukraynanın təhlükəsizliyini təmin etmək" üçün hərbi potensialın artırılması ilə bağlı bəyanatları getdikcə döyüşkən xarakter alır. Və daha uzaq gələcək üçün Aİ ABŞ-dan asılı olmayan, Rusiyaya qarşı dura bilən müstəqil silahlı qüvvələr yaratmaq məqsədini dilə gətirib. Bunun üçün lazım olan 800 milyard avro təcili olaraq axtarılır.



Ancaq burada bir detal var ki, nə Fransa prezidenti Emmanuel Makron, nə İngiltərənin baş naziri Keir Starmer, nə də daha çox ehtimal olunan Almaniya kansleri Friedrich Merz haqqında danışmaq istəmir. Vladimir Zelenski onlardan sülh sazişindən sonra 100 min sülhməramlının mümkün yerləşdirilməsi vədlərini yox, Avropa hərbçilərinin artıq təmas xəttində döyüşlərdə konkret iştirakını tələb edir. Və buradan belə çıxır ki, Makronun döyüşkən çağırışlarının arxasında Avropa liderlərinin həm Cozef Baydenin administrasiyası dövründə, həm də Donald Trampın ABŞ-ın Ukraynadakı hərbi əməliyyatlarda iştirakdan imtina etdiyini açıq şəkildə bəyan etdiyi indi onları dəstəkləyəcək heç nəsi yox idi.

Avropalıların özlərinə gəlincə, Almaniyada, məsələn, sosioloji sorğulara görə, respondentlərin 60%-i əsgərlərini döyüş meydanına göndərməyin əleyhinə çıxış edib. Digər Avropa ölkələrində bu pay az olsa da, çox da deyil. Təkcə Verden döyüşündə 1 milyondan çox insanın öldüyü Birinci Dünya Müharibəsindən sonra avropalılar döyüşmək istəyini itiriblər. Məhz o zaman Fransada Toutes les cimeti?res sont remplis par les gens inspensables ("Bütün qəbiristanlıqlar əvəzolunmaz insanlarla doludur") deyimi yarandı. Bu atalar sözünü rəhbər tutan fransızlar 1940-cı ilin aprelində almanların işğalına faktiki olaraq heç bir müqavimət göstərmədilər. 8-ci qvardiya ordusunun komandiri Vasili Çuykovun ifadəsinə görə, almanlar Stalinqradda Pavlovun evinin mühasirəsi zamanı Fransanın işğalı zamanıkından daha çox əsgər itirib. Ona görə də Ukraynada döyüş təmas xəttinə getmək çağırışına cavab olaraq indiki nəsil fransız zoomerlərindən, hətta onların britaniyalı və alman həmyaşıdlarından böyük həvəs gözləmək çətindir. Üstəlik, əksər avropalılar şüuraltı olaraq anlayırlar ki, onları qorxutduğu Rusiya təhlükəsi xəyalidir.

Buna görə də, təcrübəli Qərb diplomatları "Ukraynada istidə dırmıqlamaq" üçün əlləri ilə istifadə oluna bilən adamların axtarışında beyinlərini sındırırlar. Türkiyə onlara bu baxımdan ideal namizəd kimi görünür. Birincisi, Türkiyə silahlı qüvvələri hazırda NATO-ya üzv Avropa ölkələrinin orduları arasında ən böyüyüdür. İkincisi, bunlar həqiqətən yaxşı səfərbər edilmiş, nizam-intizamlı və ən əsası müasir müharibə şəraitində döyüş əməliyyatlarının aparılmasında təcrübəli hərbi personaldır. Üçüncüsü, London və Parisdə Türkiyənin onilliklər, hətta əsrlər boyu Rusiyanın "təbii düşməni" olmasına böyük əhəmiyyət verilir. Dördüncüsü, Rusiyanın özündə Qarsda və Bəyazitdə rus mülkləri baxımından düşünən fiqurlar var. Rusiya-Türkiyə münasibətlərində çətinlik yarandıqda, Boğaziçi və Çanaqqala boğazlarını genişləndirmək üçün bir atom bombasının kifayət edəcəyini bəyan edirlər.

Təbii ki, sıravi insan müəyyən siyasi hadisələrin səbəblərində gizlənən hərəkətverici motivlərin və qüvvələrin mürəkkəb tellərini görə bilməz. Bu cür hadisələr həmişə aysberqə bənzəyir, onun yalnız onda biri okeanın səthindən yuxarı qalxır. İndi də "İstanbulda hökumət əleyhinə etirazlar" adlanan buz dağının onda doqquzu bizim üçün görünməz olaraq qalır. Ancaq aysberqin xarici konturlarından hələ də bir şey görmək və nəyisə təxmin etmək olar. Məsələn, ötən gün Qərb mətbuatının yazdığı budur: "Brüssellə Ankara arasında münasibətlər istənilən halda istiləşməlidir. İlk növbədə ona görə ki, Avropa indi Vaşinqtondan müdafiə asılılığını azaltmağa və Ukraynada hərbi sülhməramlı missiya yaratmağa çalışır və bu məsələdə Türkiyə silahlı qüvvələri onu əsas oyunçuya çevirə bilər".

Daha açıq deyə bilməzdilər? Ki, Brüsselin fəal şəkildə dəstəklədiyi anti-Ərdoğan rəngli inqilab türkləri Ukraynaya göndərilməsi planlaşdırılan NATO hərbi kontingentinin sıralarına çəkmək istədikləri bir növ qamçıdır. Ancaq təkcə çubuq deyil, həm də yerkökü istifadə olunur. Türkiyə uzun müddətdir ki, Avropa Birliyinə üzv olmaq istəyir. Və avropalılar həmişə bundan imtina ediblər. Qərb siyasətçilərinin təfəkkürünün hərbi paradiqmasında Ankaranın artan əhəmiyyətini nəzərə alsaq, onların bu məsələdə mövqeyinin yumşalmasını gözləmək olar. Təbii ki, şəxsi maraq olmadan.

Ərdoğanın mövqeyi doğrudan da çətindir. Amma eyni zamanda Brüsselin dəstəklədiyi müxalif qüvvələrin də əhəmiyyətini şişirtmək olmaz. Prezidenti ölkənin mühafizəkar əksəriyyəti, Anadolu fermerləri, müsəlman ruhaniləri, kiçik və orta sahibkarlar dəstəkləyir. Onun tərəfində, nəhayət, ordu siyasi qüvvələr daxilində güc balansının mühüm tərkib hissəsidir. Xarici siyasət vəziyyətinə gəlincə, Ərdoğan ABŞ-la münasibətləri yaxşılaşdırmaqla öz mövqeyini gücləndirib. Buna qismən obyektiv şərait də kömək etdi. Ötən oktyabrda Ərdoğanın tanınmış daxili rəqibi, Bayden administrasiyası tərəfindən qidalanan Fətullah Gülən ABŞ-da vəfat edib. Trampa gəlincə, ABŞ-ın Ankaradakı yeni səfirinə verdiyi tapşırıqda o, "Türkiyə yaxşı ölkədir və yaxşı lideri var" sözləri ilə Ərdoğanla münasibətlərdə ABŞ-ın mövqeyini önə çəkib.

Ərdoğanın düşdüyü çətin siyasi vəziyyət müəyyən mənada 1920-ci ildə Antantanın Osmanlı imperiyasına yırtıcı Sevr müqaviləsini tətbiq etdiyi Türkiyəni xatırladır. O zaman Mustafa Kamal Atatürk başda olmaqla millətin sağlam qüvvələri 13 Antanta dövlətinin və ona müttəfiq olan dövlətlərin birləşmiş gücünə müqavimət göstərə bildi.Rusiya ilə konstruktiv əməkdaşlıq, Ərdoğanın Vladimir Putinlə şəxsi işgüzar münasibəti hazırda Türkiyədə sabitliyin və onun xarici siyasət mövqelərinin davamlılığının mühüm amilidir. Ankara isə heç bir halda bu amili diqqətdən kənarda qoymaq istəmir.

***V.VƏLİYEV***

# “Almaniya Cənubi Qafqazda ən böyük və lider dövlət kimi məhz Azərbaycanı tanıyır”



“Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana bu səfəri onun Prezident kimi ilk rəsmi səfəridir. Bu səfər çox mühüm əhəmiyyət kəsb edirdi, çünki Avropa İttifaqında Azərbaycan üçün Almaniya ən mühüm tərəfdaşlardan biridir. Almaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa ölkələrindən biri olub. 1992-ci ilin yanvarın 12-də Azərbaycanın müstəqilliyini tanıyıb, fevralın 22-də isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Həmin ilin sentyabrın 2-də Azərbaycan Almaniyanın paytaxtı Berlində səfirlik açıb. Sentyabrın 22-də isə Almaniya Bakıda öz səfirliyini təsis edib”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Həsənov deyib.

Onun sözlərinə görə, bu səfirliklərin fəaliyyəti ilə paralel olaraq iki ölkə arasında iqtisadi və siyasi əlaqələr də genişlənməyə başlayıb: ”2024-cü ildə Almaniya ilə Azərbaycan arasında ticarət dövriyyəsi təxminən 1,6 milyard dollar səviyyəsində olub. Frank-Valter Ştaynmayer Azərbaycanda səfərdə olarkən Azərbaycan Prezidenti ilə birgə mətbuata açıqlamasında bildirdi ki, o, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ”Qarabağ Azərbaycandır” mövqeyini dəstəkləyir. Qeyd edək ki, o, Azərbaycana səfər etməzdən əvvəl Ermənistanda olmuşdu və orada müxtəlif görüşlər keçirmişdi. Həmin səfər zamanı



onun protokol şöbəsi tərəfindən - ehtimal ki, bilərəkdən yox, sadəcə texniki bir səhv kimi - keçmiş ”arsax”ın bayrağı Prezidentin rəsmi ”Instagram” səhifəsində paylaşılmışdı”.

Həmçinin Elşad Həsənov qeyd edir ki, bundan sonra Azərbaycan tərəfi rəsmi nota təqdim etdi və nəticədə həmin paylaşım dərhal silindi: ”Almaniya Prezidentinin Administrasiyası bu səhvə görə Azərbaycandan üzr istədi və məsuliyyəti öz üzərinə götürdü. Yəni, belə bir qalmaqaldan sonra bu səfərin normal və sakit keçməsi olduqca vacib idi. Biz də bu məsələyə ehtiyatla yanaşdıq, Prezidentin üzünə vurmadıq, amma məsələ ən yüksək səviyyədə qarşı tərəfə bildirildi və onlar da öz səhvlərini qəbul etdilər.

Təbii ki, Almaniya Cənubi Qafqazda ən böyük və lider dövlət kimi məhz Azərbaycanı tanıyır. Bu, təsadüfi deyil. Çünki Azərbaycan həm ərazisinə, həm əhalisinin sayına, həm iqtisadi gücünə, həm də hərbi potensialına görə digər iki Cənubi Qafqaz ölkəsindən xeyli irəlidədir. Eyni zamanda, Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatçısı rolunda çıxış edir. Hazırda ölkəmiz Avropanın 10 ölkəsinə qaz ixrac edir. Bundan iki il əvvəl isə Azərbaycanla Avropa İttifaqı arasında enerji resursları ilə bağlı mühüm bir müqavilə imzalanıb. Azərbaycan həmin müqavilə üzrə öz öhdəliklərini tam şəkildə yerinə yetirir və qaz ixracını davam etdirir.

Bildiyimiz kimi, Avropa bir müddət öncə Rusiyanın qazından imtina etməyə qərar verdi və bu səbəbdən ciddi enerji böhranı ilə üzləşdi. Məhz belə bir vəziyyətdə Avropaya ilk yardım əlini uzadan Azərbaycan oldu. Bu səbəbdən Almaniya Prezidenti də öz çıxışında Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Bundan əlavə, Almaniyada 1200-dən artıq azərbaycanlı stomatoloq fəaliyyət göstərir. Ümumilikdə Almaniyada səhiyyə sahəsində həkim çatışmazlığı müşahidə olunur və bizim mütəxəssislərimiz də həmin ehtiyacı qarşılamaq üçün bu ölkədə çalışırlar. Almaniya, eyni zamanda, yüksək keyfiyyətli təhsil sistemi ilə tanınır. Bu səbəbdən də çoxsaylı azərbaycanlı tələbələr burada təhsil alır, müxtəlif sahələrdə bilik və bacarıqlarını artırırlar”.

*Xeyrənsə Piriyeva*



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Tramp mifi ”əriyir”...

**"Nə Ukraynada sülh yarada bildi, nə dünya hegemonluğuna nail oldu, üstəlik Çinlə ticarət müharibəsinə girişib ABŞ-ın özünü də riskə atdı"**

Əvvəlcə ABŞ prezidentliyinə namizəd olanda böyük səs-küylə bəyanatlar verdi, dünyanı şoka salan fikirlərlə hakimiyyətə gəldi. Ağ Evə girər-girməz isə başgicəlləndirici qərarlara imza atdı, Volodimir Zelenskini Ağ Evə çağırıb hərbə-zorba gəldi. Hətta Vladimir Putinlə birləşib Avropanı diz çökdürəcəyi gözlənilirdi. Lakin bunların heç biri hələ ki baş verməyib. Təkcə 50-dən çox ölkəyə vergi və gömrük ”müharibəsi” tətbiq etməkdən başqa. Artıq ABŞ Konqresində Donald Trampın impiçmenti barədə səslər yüksəlir. Açıq şəkildə görünür ki, D.Trampın hegemonluq iddiaları iflasa uğrayıb. ABŞ prezidentinin dünyada iqtisadi müharibələrə və hətta bəşəriyyəti böhran və aclıq təhlükəsinə sürükləyən ”ticarət doktrinası” ilk zərbə kimi ABŞ-ın özünə dəyəcək.

Çünki Çin şirkətlərinə qarşı vergi və gömrük sanksiyalarını 50 faizə qədər yüksəldən D.Tramp, əslində, bu addımı ilə ilk əvvəl ABŞ şirkətləri üçün quyu qazdığının fərqində olmayıb çox güman. Çünki rəsmi Pekin də bunun qarşılığında Çin ilə ticarət tərəfdaşı olan ABŞ şirkətlərinə qarşı ikiqat rüsum və gömrük ”sığalı” çəkib. D.Trampın Çin əleyhinə ticarət düşmənçiliyini artıq iflas etmiş də saymaq olar. Çünki dünyada hegemon olmaq iddiasını hər gün artıran Çin dövləti D.Trampın bu siyasətinə neçə müddətdir ki hazırlaşırmış və Ağ Evdən gələn zərbələr qarşısında hazırlıqlı görünür. Diqqət edin, Ağ Evin bu radikal addımları ABŞ-ın özü də daxil olmaqla, əksər dünya ölkələrinin ticarət maraqlarına ciddi zərbə vurmağa başlayıb. Xüsusilə bu zərbələr böyük maliyyə itkilərində özünü açıqca ortaya qoyur. Dünyanın ən etibarlı KİV-ləri ümumi iqtisadi itkilərin trilyonlarla dollara bərabər olduğunu yazırlar. Bu nə deməkdir? Bu o deməkdir ki, dünyada bir nömrəli maraq kimi daima öndə olan ticarət maraqları və ”rüsum müharibəsi” artıq Vaşinqtonun özündə ”od tutub yanacaq”. Həm siyasi, həm də iqtisadi mənada. Çünki hazırda baş verən proseslər açıq şəkildə onu göstərir ki, D.Tramp bu hədə-qorxu siyasəti ilə, əslində, reallaşdıra bilməyəcəyi işin qulpundan yapışıb və indi təkcə özünü deyil, həm də bütün ABŞ-ı ciddi risk altına salıb.

Onun Ukraynada birtərəfli şəkildə ”sülh yaratmaq” planı da lazımsız kağız kimi zibil qabına atılıb. Çünki nə əvvəlki kimi V.Zelenski ondan qorxmur, nə də ”dost” adlandırdığı V.Putin artıq onunla eyni yolu getmək istəmir. Üstəlik, ilk günlərdə D.Trampın addımları qarşısında özünü itirən Avropa İttifaqı liderləri də artıq soyuq başa düşünür və ”qorxunc” ABŞ prezidentindən qəti şəkildə çəkinmirlər. Netanyahu ilə Ağ Evdəki görüşdə Suriya və Türkiyə barədə nə qədər iddialı fikirlər səsləndirsə də, artıq D.Trampın qorxunc və iddialı mifi əriyib yoxa çıxır...

# Süni intellekt necə insanın dar günündə yanında ola bilər?



**“Son dövrlərdə bəzi insanlar süni intellektlə dostluq etdiklərini iddia edirlər. Açığını desək, belə insanların səmimiyyətinə inanmıram. Mənim düşüncəmə görə, bu insanların sosial əlaqələr qurmaqda çətinlikləri ola bilər və bu, bəzən ciddi psixoloji problemlərin əlaməti də ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.**

O bildirib ki, Allah insanı fitrətən dostluğa meylli, bir dosta ehtiyacı olan şəkildə yaratmışdır: ”İnsan, həyatında qarşısına çıxan insanla bir ruh bağlılığı qurmalı, o dostun yanında olmalı, onunla həm sevincli, həm də çətin anlarını bölüşməlidir. Dost, çətin günündə yanında olmalı, mənəvi dəstək verməli və hətta maddi yardıma ehtiyac olduğu zaman belə sənə kömək etməyə hazır olmalıdır. Lakin süni intellekt, məsələn, ChatGPT, bunları edə bilirmi? Əslində, o, yalnız məlumat bazası ilə işləyən, ruhsuz bir robotdur. Bir robot insanın dostu ola bilməz, çünki o, insanın duyğularını hiss etməyə, anlamağa və buna uyğun reaksiya verməyə qadir deyil.

Süni intellekt necə insanın dar günündə yanında ola bilər? Dostun çətin bir vəziyyətə düşdüyünü görəndə dərhal yanında olur, onun halı ilə maraqlanır, ehtiyac olduqda maddi və mənəvi dəstək verir. Dost, hətta insanın ailəsi ilə maraqlanır, onların yaxşılığını düşünür. Məsələn, sən dostuna, onun valideynlərinə və ya övladlarına əmanət edə biləcəyin bir insan kimi etibar edə bilərsən. Lakin ChatGPT və ya digər süni intellekt sistemləri belə bir etibarı qazana bilməzlər. Onlar yalnız proqramlaşdırılmış cavablar verə bilərlər və insanın real dünyadakı ehtiyaclarına uyğun hərəkət etməkdən uzaqdırlar”.

”Beləliklə, bu müqayisə kökündən yanlışdır. İnsan yalnız özü kimi xəlq edilmiş bir insanla dostluq edə bilər, çünki dostlar bir-birini hiss edirlər, bir-birinin ruhunu anlayırlar. Hisslər və ruhsal bağlar, insanın dostluq münasibətində mühüm rol oynayır. ChatGPT isə sadəcə zəngin məlumat bazasına sahib bir robotdur və bu səbəbdən dostluq anlayışına uyğun bir varlıq ola bilməz” - deyə o, əlavə edib.

*Söylü Ağazadə*

# Bir-birindən maraqlı uşaq oyunlarımız: Unudulmağa qoymayaq!

**X YAZI**

Bu gün uşaqların gündəlik həyat tərzinə azacıq diqqət yetirmək kifayətdir ki, illər öncənin bir-birindən maraqlı, əyləncəli uşaq oyunlarını xatırlayasan. Xatırladıqca da, heyif o günlərdən, deyəsən. Həqiqətən də o günlərə də, o oyunlara da çox heyif. Bu gün bircəsi belə oynanmayan, xatırlanmayan oyunlar, bu gün bir anı belə yaşanmayan o günlər...

Düşünəndə arada uzun bir zaman fasiləsi də yoxdur. Belə isə bəs nə üçün unuduldu o günlər, o oyunlar? Heç aradan bir nəsil də keçməyib. O günləri görən də, o oyunları oynayan da bizik. O günlərdən, o oyunlardan xəbərsiz olan isə bizim övladlarımızdır. Maraqlıdır, biz özümüz oynadığımız oyunları övladımıza öyrədə bilmədik, yoxsa öyrətmək istəmədik? Bəlkə buna mane oldular?

Kimdir günahkar, səbəbkar? Zaman, yoxsa biz? Unutduğumuz, uşaqları haqqında xəbərdar belə etmədiyimiz oyunları nə üçün bəyənmədik? Yoxsa yeni dünyanın yeni əyləncələri o oyunları üstələdi? İnternet əsri başlanandan biz də dəyişməyə başladıq. Sanki bizi evlərə qatıb qapını bağladılar. Nə özümüz küçəyə çıxdıq, nə də övladımızı çıxardıq. Səhərdən-axşamadək televizor, kompüter qarşısında qaldıq, gözümüzü smartfon telefonlardan ayırmadıq. Nəticə nə oldu? Bunu artıq görməyə başlamışıq, yaxın gələcəkdə isə tam nəticə ilə üzləşəcəyik.

Unutmaqda səbəbkarı özümüz olan uşaq oyunlarından danışaq. Danışaq ki, bəlkə valideynləri uşaqlarına arada-sırada bu oyunları xatırlada və onları unudulmağa qoymaya.











## Bir vaxtlar vardı...

O vaxtlar bizim uşaqlıq, yeniyetməlik, hətta gənclik çağlarımız idi. Elə ki, məktəbdən gəldik, əynimizi dəyişdik, yeməyimizi yedik, həyətə küçəyə yollanırdıq. "Beş daş"dan, "Yeddi daş"dan "Qovala-qaç"a, "Bənövşə"yə , "Ortada qaldı"dan "Gizlən-qaç"a, "Gözbağlıca"ya kimi çoxsaylı oyunların heç bilmirdik hansını oynayaq. Düz toran vaxtınadək küçədə oynayırdıq. Düşürdük topun arxasınca, qaçırdıq. İplə atlanıb-düşürdük, gizlənirdik, bir-birimizi tapırdıq, "alma desəm, gəl, armud desəm, gəlmə"lərlə oyuna şirinlik qatırdıq.

Həyəti gəzib hamar daşlar axtarırdıq ki, "Yeddi daş" oyununu oynayaq. Yığırdıq daşları üst-üstə, 2-3 metr uzaqdan topla daşlara elə zərbə endirməli idik ki, hamısı ətrafa dağılsın. Dağılsın ki, qalib ola biləк.

Düşürdük həyətə, küçəyə 5 ədəd yumru daş axtarıb tapıb "Beş daş" oyununa başlayırdıq. O daşları əlimizdə, barmaqlarımızın arasında elə oynadırdıq ki, sanki daşlar və barmaqlar rəqs edirdi.

Saatlarla "Ortada qalma" oynayırdıq. 2-3 metrlik məsafənin hər başında bir uşaq dayanırdı. Üçüncü uşaq ortaya düşürdü. Elə etməli idi ki, həmin iki uşağın bir-birinə sürətlə ötürdüyü top ortada qalana dəyməsin. Dəyərdisə əgər, o, uduzmuş hesab olunurdu. Biz də bunu elə məharətlə oynayırdıq ki, saatlarla ortada qalırdıq, lakin top bizi "nişan ala" bilmirdi.

"Gizlən-qaç" oynayırdıq. Elə yerlərdə gizlənirdik ki, məgər bizi tapmaq olardı. İnsan ağlına gəlməyən yerlər bizim gizləndiyimiz yerlər olurdu. Beləliklə, oyun saatlarla çəkirdi. O vaxta qədər ki, anlarımız səsləyirdi: ay bala, toran vaxtıdır, evə gəlin, dərsləriniz qaldı axı...

"Bənövşə, bəndə düşə, bizdən sizə kim düşə" deyə elə ucadan səslənirdik ki, bütün ətrafda əks-səda verirdi bu səs. Həm də "Bənövşə" oyununda məhəllənin demək olar ki, bütün uşaqları iştirak edirdi. Bu oyun bizə birgə əyləncənin şirinliyini öyrədirdi. Kollektiv oyunun marağını aşılayırdı. Söz yox ki, bu birgəlik gələcəyin həmrəyliyi olacaqdı. Bəlkə də kənardan baxanda adi bir oyun kimi görünür belə kollektiv oyunlar. Lakin bu kimi oyunların uşaqlara həmrəyliyi, lazım gələndə birgə fəaliyyətdə olmağı aşıladığı sözsüzdür.

"Qovala-qaç", "Klas-klas", "Çiling ağac", "Siçan-pişik", "Usta-şagird", "Aşıq", "Qazlar-ördəklər"i deyim, məhəllə uşaqlarının futbolunu, voleybolunu deyim, hansından danışım ki, o illərin mənzərəsini yarada bilim? Səhərdən-axşamadək təmiz havada, günəşin zərrin şüaları altında mis rəngi alan uşaqların hansı oyunundan danışım ki, o uşaqlarla bugünkü uşaqları müqayisə edə bilim, gün ərzində saatlarla hərəkətdə olan o uşaqlarla bu gün bir saat belə hərəkət etməyən uşaqlardan danışım?..

*Ardı Səh. 7*

# Bir-birindən maraqlı uşaq oyunlarımız: Unudulmağa qoymayaq!

Əvvəli Səh. 6

Hansı oyunlardan danışım ki, onların birbaşa sağlamlığa xidmət etməsi fonunda bu gün kompüter qarşısında onurğa sütunu əyilən, smartfona baxmaqdan gözləri zəifləyən və kütləvi şəkildə eynəkdən istifadə edən uşaqların valideynlərinə o oyunlarla bu oyunların mahiyyətini izah edə bilim?..



## Xəstə, ruhsuz, duyğusuz uşaqlar...

Bu gün valideynlər uşaqları həyətdən, küçədən təcrid edib evlərə qapamaqla, qarşılarına kompüter, əllərinə smartfon verməklə onların xəstə, ruhsuz və duyğusuz olmasına real şərait yaradırlar. Bir zamanlar özü səhərdən-axşama kimi küçədən evə yığılmayan valideyn bunu övladına necə rəva görür, bax maraqlı budur. Nə üçün uşaqlıq oyunlarını uşağına öyrətmir, həmin oyunları övladına aşılamır, bu daha maraqlı olan məsələdir. Axı bir valideyn nə üçün anlamaq istəmir ki, uşağın sağlam böyüməsi onun cəmiyyət üçün faydalı olması deməkdir. Evin içində, kompüter və telefon qarşısında gələcək cəmiyyət üçün onlar nə dərəcədə faydalı ola bilər? Axı həyat insan sağlamlığından birbaşa asılıdır. Sağlam insan sağlam düşüncə, təfəkkür deməkdir. Sağlamlıq olmayandan sonra nədən söhbət etmək olar?







Öz yaşıdları ilə sosiallaşmayan, birgə şəraitdə oynamayan, dialoq qurmayan uşaq sabah cəmiyyətdə özünü necə aparacaq? Bax bu sualın cavabını özlüyündə düşünən valideyn övladını uşaqlarla birgə oynamaqdan məhrum etməz. Üstəlik məhəllə uşaqlarını başına toplayıb uşaqlıqda oynadığı oyunları onlara öyrədər. Beləliklə, həm övladlarımız sağlam böyüyər, həm də milli folklorumuzun böyük bir şaxəsi olan uşaq oyunları unudulmaz.

Biz nə edirik? Nəinki bu barədə düşünür, hətta özümüzü də təmiz havadan təcrid edib evlərə qapanırıq. Səhərdən axşamadək televizor qarşısında serial izləyir, o bitəndə isə telefonu əlimizə götürüb sosial şəbəkələrdə o qədər gəzişirik ki, günün haradan gəlib haraya getdiyindən xəbərimiz olmur. Sonra da başlayırıq gileylənməyə ki, zaman çox sürətlə keçir. Əslində zaman yerində dayanıb, onu sürətləndirən bizim əyləncələrimizdir. O əyləncələr ki, günün başlanması ilə bitirməsini görünməz edir.

## Uşaqları qurban edirik

Gözünü açıb bizi görən uşaqlar təbii ki, bizə bənzəyəcək. Biz nə qədər evdən təmiz havaya çıxmırıqsa, nə qədər serial izləyiriksə, nə qədər sosial şəbəkələrdə gəzib bəzən boş və mənasız videoların, fotoların, söhbətlərin ağuşuna düşürüksə, təbii ki, uşaqlarımızı da təmiz havaya çıxarmağa vaxtımız olmayacaq. Beləliklə, uşaqlar da təmiz havaya həsrət qalacaq, evin bir küncündə əylənməyə bir şey axtaracaq. Bunun üçün çox əziyyət çəkməyəcək. Çünki biz onun sakit dayanması, bizə mane olmaması üçün əlimizdən gələni edirik. Əllərinə telefon verib başımızdan edir, kompüteri açıb yaşına, dünyagörüşünə uyğun olmayan cizgi filmlərinə baxmağa təhrik edirik. O cizgi filmləri ki, uşağa yalnız vahimə, çığır-bağır, qan-qada aşılayır. O videolara uşaqlar baxır ki, ona qətiyyən baxmamalıdır.

Maraqlıdır, sosial şəbəkələrin iyrənc bir məkana çevrildiyi bir dövrdə biz uşaqlara necə telefon verə bilirik, onları necə nəzarətsiz qoya bilirik? Axı özümüz dəfələrlə gözlənilməz anda belə əxlaqsız videolarla qarşılamalı oluruq. Bəs bunu necə düşünməyəsən ki, həmin videolar uşağın da qarşısına çıxa bilər?

Uşaq nə üçün oyunu kompüterdə və yaxud telefonda oynamalıdır? Bizim çoxsaylı uşaq oyunlarımız ola-ola, həm də təmiz havada oynanılan oyunlar, nə üçün onları övladımıza çox görmüşük? Nə üçün uşaqları öz maraq və istəklərimizin qurbanı edirik? Biz işimiz, serialımız var deyə onları təmiz havaya çıxarmırıq. Uşaq oyunlarını onlara öyrətmirik. Nə üçün onları öz qurbanımıza çeviririk?..

## Uşaqlara da, uşaq oyunlarına da rəhm edək!

Beləliklə, həm uşaqlara, həm də uşaq oyunlarına, gəlin, rəhm edək. İnanın, çox qısa zamanda uşaqlara etdiyimiz sitəmin nəticələrini görəcəyik. Onların xəstəhal olduğunu, ruhsuz, duyğusuz böyüdüyünü, sonrakı illərdə özünə dost, rəfiqə tapmaqda çətinlik çəkəcəyini gördükcə ürəyimiz sızlayacaq. Bu zaman kimi təqsir hesab edəcəyik. Heç inanmıram ki, bunun üçün özümüzü tənbeh edək. Bu günahları da zamanın və zəmanənin üzərini yükləyəcəyik. Lakin nə zaman dəyişir, nə də zəmanə. Onları dəyişdirən biz insanlarıq. Şüursuzcasına düşüncələrimiz, hərəkətlərimiz zamana öz "töhfə"sini verir. Bir də baxırıq ki, dünənlə bu gün arasında o qədər fərq var ki... Belə olanda isə zəmanədən gileylənirik. Lakin zəmanənin də zaman kimi heç bir günahı yoxdur.

Bütün yeniliklərə qapımızı açan, onları yuxarı başda əyləşdirən bizik. Bütün yenilikləri acgözlüklə qarşılayan, özümüzün olanını yaddan çıxaran, unudan da bizik. Müasirlik adı altında dünənimizin üzərindən xətt çəkən də bizik. Eləcə də uşaqlrı öz uşaqlığımızdan fərqli şəkildə böyüdən də bizik.

Söz yox ki, biz istəsək, həyatımızı elə istədiyimiz şəkildə qura bilərik. Lakin müasirliyə boyun əyirik. Həyatımıza nə qədəm qoydusa, ondan asılı vəziyyətə düşürük. Sanki beynimizi yuyurlar, yeniliklər adı altında əslində bizə keçmişimizi unutdururlar. Elə özümüzün oynadığımız onlarla uşaq oyunları kimi. Lakin gəlin, dərindən düşünək: həm uşaqlara, həm də uşaq oyunlarına rəhm edək. Övladlarımızın sağlam, təşəkkürlü, duyğulu, dostlu, rəfiqəli böyüməsi üçün onlardan uşaq oyunlarını əsirgəməyək. Öyrədək, aşılayaq ki, onları həm də unudulmağa qoymayaq!

***Mətanət Məmmədova***

# Çinin "Orta Dəhliz" marağı

*Qatarlar yaxın vaxtlarda Avropaya malları Rusiya vasitəsilə deyil, Azərbaycan və Türkiyə vasitəsilə çatdıracaq*

***Ukrayna böhranı və Qırmızı dənizdə husilərin yük gəmilərinə hücumları Pekini Çinin əsas ticarət tərəfdaşı olan Aİ-yə yeni ticarət yolları axtarmağa vadar edir. Donald Tramp Çini tariflərlə Amerika bazarlarından sıxışdırmağa davam edərsə, bu vəzifə daha da aktuallaşacaq. Çin, Qırğızıstan və Özbəkistan dekabr ayında Xəzər dənizi, Azərbaycan və Türkiyə üzərindən keçərək Çini Avropaya logistik baxımdan yaxınlaşdıracaq dəmir yolunun tikintisinə başlayacaqlarını açıqlamışdı. Çindən Avropa marşrutlarının istiqamətinin dəyişdirilməsi Rusiya iqtisadiyyatına zərər verəcək, lakin Pekin-Moskva əlaqələrinə təsir etməyəcək.***




The Economist jurnalı yazır ki, yeni dəmir yolu xətti haqqında söhbət 30 il əvvəl başlayıb. Planın həyata keçirilməsi ilə bağlı qərar yalnız Ukraynada müharibə başlayandan sonra qəbul edilib. Bundan əvvəl Çindən Avropaya gedən əsas dəmir yolu xətti Rusiyadan, bəzən də Qazaxıstandan keçirdi. Ukraynadakı hərbi münaqişə mənzərəni dəyişib. Yüklərin təhlükəsiz daşınmasından əmin olmayan və sığortanın bahalaşmasından narazı olan Avropa daşıyıcıları bu marşrutdan yayınmağa başladılar. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar da malların Rusiya üzərindən çatdırılma müddətinin artmasına səbəb olub.

Yük şirkətləri yükləri Qazaxıstanın Xəzər dənizindəki limanlarına yönləndirməyə başladılar, yəni "Orta Dəhliz" adlanan "transxəzər marşrutundan" istifadə etməyə başladılar. Bura Qırğızıstan və Özbəkistandan keçən xətti də əlavə etsək, Avropaya gedən "Orta Dəhliz" daha da qısalacaq. 2024-cü ilin iyununda Çin hökuməti bu ölkələrlə 520 km dəmir yolu xəttinin çəkilməsi ilə bağlı müqavilə imzalayıb.






Nüfuzlu Britaniya jurnalının öz şərhində daha sonra xatırladığı kimi, Pekin Moskva ilə münasibətlərinin "arxaya, çiyin-çiyinə" prinsipinə əsaslandığını bildirib. Yəni iki güc arasında əlaqələr güclüdür. Amma Avropaya ixraca gəldikdə, Çin ən yaxşı dostundan asılı olmamağa üstünlük verir. Çinlilər Rusiya liderlərindən üz döndərmirlər. Onlar Rusiyanı "Kəmər və Yol" təşəbbüsü əsasında qlobal infrastrukturun qurulmasında əsas komponent kimi görürlər. Bu təşəbbüs 2013-cü ildə Çinin lideri olanda Si Cinpin tərəfindən irəli sürülüb. Üstəlik, bunun motivlərindən biri də Rusiya və Orta Asiya ilə dəmir yolu əlaqələrini genişləndirmək istəyi idi. Axı ABŞ-la müharibə olarsa, Çini enerji resursları və xammalla təmin edə bilərdilər. İndi Çinin "Orta Dəhliz"lə bağlı həvəsi onun ixracı artırmaq istəyini artırır. Axı bu, iqtisadiyyatın hərəkətverici qüvvəsidir. İqtisadi artımın qeyri-sabit olduğu şəraitdə onun qorunub saxlanması xüsusilə vacibdir.

Buna baxmayaraq, Çin və Rusiya arasındakı dəmir yolu marşrutları hər iki ölkə üçün son dərəcə vacib olaraq qalır. Bu xətlər vasitəsilə Çin Rusiyaya silah istehsalı üçün lazım olan avadanlıqlar verir. Təbii ki, iki ölkə arasında dəmir yolu ilə yük dövriyyəsi artıb, Aİ ilə isə əksinə, azalıb. Pekin başa düşür ki, dolanma yolu Avropa bazarına, xüsusən də zamana həssas mallar üçün daha asan çıxış təmin edə bilər. Ona görə də Qırğızıstan və Özbəkistanla sövdələşmələr bağlayıb.

Təbii ki, dəniz yolu nəzəri cəhətdən qurudan qat-qat üstündür. China Global South Project-in eksperti Yunus Şəriflinin dediyi kimi, qatarlar heç vaxt gəmiləri əvəz etməyəcək. Bir gəmi qatardan yüzlərlə dəfə çox konteyner daşıya bilər. Husilərin hücumlarına baxmayaraq, dəniz yolu ilə daşınma qurudan daha sərfəli olaraq qalır. Bəzi şirkətlər hətta Ümid burnu ətrafında gəmilərini Avropaya göndərməyə başlayıblar ki, onları çarpaz atəşə tutmaq riski ilə üzləşməsin. Qırğızıstan və Özbəkistandan keçən dəmir yolunun tikintisi bir neçə il çəkəcək.

Bişkekdən verilən məlumata görə, Çin Qırğızıstana 2,35 milyard dollar kredit verib. "Orta Dəhliz"in keçdiyi ölkələr və Çin onu təkmilləşdirməyə çalışır. Rusiya bu işlərdə iştirak etmir. Orta dəhliz Rusiyadan keçən marşrutdan qısa olsa da, bu yol boyu malların çatdırılması daha uzun vaxt aparır. Bir neçə sərhədi keçmək, yükləri Xəzər dənizində və ya Qara dənizdə alternativ marşrutla gəmilərə daşımaq lazımdır.

Bununla belə, Çin artıq "Orta Dəhliz"ə Rusiyadan keçən marşruta sadə əlavə kimi baxmır. Dövlət Təhlükəsizliyi Nazirliyinin bir qolu hesab edilən Çin Müasir Beynəlxalq Münasibətlər İnstitutunun araşdırmasına görə, marşrut "yüklərin daşınması üçün əsas kanala çevrilir və strateji əhəmiyyət kəsb edir". Almaniyanın Rhenus logistika şirkətinin İstanbuldakı direktoru Korkan Tuğrul isə deyir ki, bu dəhlizlə daşıma hələ də Rusiyadan keçəndən 35% bahadır. Lakin bu marşrutla Çindən getdikcə daha çox yük hələ də çatdırılır.

Bu, Rusiyadan dəmir yolu ilə yan keçmək planıdır. Qırğızıstan və Özbəkistandan keçən xətt 2023-cü ildən tikilir, ilk növbədə, Çin mallarının tədarükünü təmin etmək, gələcəkdə Çin mallarının Avropaya çatdırılması üçün istifadə oluna bilər. Rusiyanın Çinlə münasibətlərinə kölgə salmaq da böyük ehtimallardandır.

**V.VƏLİYEV**

BAXIŞ BUCAĞI




# Brüsselin "Turan planı"

## Mərkəzi Asiya ölkələri ilə Avropa İttifaqı arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə qaldırılır

***Avropa İttifaqı Mərkəzi Asiya ölkələrinin inkişafına 12 milyard avro sərmayə qoyur. Vəsaitlər nəqliyyat, enerji, mineral emalı və peyk rabitəsinə yönəldiləcək. Bu barədə Səmərqənddə keçirilən Mərkəzi Asiya-Avropa İttifaqı sammitində məlum olub. Aİ-nin Mərkəzi Asiyaya hazırkı marağı təkcə onun resursları və nəqliyyat potensialı ilə deyil, həm də dəyişən geosiyasi vəziyyətlə bağlıdır. Ticarət müharibələri və siyasi fikir ayrılıqları Aİ-ni yeni tərəfdaşlar axtarmağa sövq edib.***

Aprelin 4-də Səmərqənddə tarixi ilk Mərkəzi Asiya - Avropa İttifaqı sammiti başa çatıb. Özbəkistan prezidenti Şavkat Mirziyoyevin sədrliyi ilə region ölkələrinin liderləri Aİ liderləri Antonio Kosta və Ursula fon der Leyen ilə görüşüblər. Görüş zamanı iki regionun iqtisadi, humanitar və texnoloji inteqrasiyasına yönəlmiş geniş spektrli təşəbbüslər haqqında sazişlə tərəfdaşlıq haqqında birgə bəyannamə imzalanıb. "Bu o deməkdir ki, biz bir-birimizə arxalana bilərik, bu, bu gün xüsusilə vacibdir", - Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen vurğulayıb.

O, əməkdaşlığın dörd əsas istiqamətini müəyyən edib: Transxəzər Dəhlizi, nadir mineralların hasilatı, yaşıl enerjinin inkişafı və rəqəmsallaşma. O, bu sahələrdə Aİ ilə Mərkəzi Asiya arasında qarşılıqlı fəaliyyət üçün əhəmiyyətli potensialın olduğunu qeyd edib. "Tərəqqi sürətləndirmək üçün mən Qlobal Gateway üçün 12 milyard avroluq investisiya paketini elan etməkdən qürur duyuram. "Bu, Avropa İttifaqının və onun üzv ölkələrinin investisiyalarını bir araya gətirəcək" deyib və bunu "Avropa komandasının yanaşması" və münasibətlərdə yeni eranın başlanğıcı adlandırıb.

Yeni paket Mərkəzi Asiyada nəqliyyatın inkişafı üçün bir sıra layihələrə start verəcək Avropa ilə Mərkəzi Asiya arasında quru yolu demək olar ki, yarıya qədər - 15 günə qədər azaldacaq: "Dünyanın parçalanmasının artması şəraitində Transxəzər dəhlizi Mərkəzi Asiya ilə Avropanı birləşdirəcək. Amma vacib olan təkcə infrastruktur deyil. Qara dənizə çıxış üçün Mərkəzi Asiya və Cənubi Qafqaz daxilində sərhədlərin sürətli keçidi də lazımdır. Üç onillik bağlandıqdan sonra Ermənistanın Türkiyə və Azərbaycanla sərhədlərinin açılması dönüş nöqtəsi olacaq. Bu, Avropa və Mərkəzi Asiyanı hər zamankindən daha da yaxınlaşdıracaq", - deyə Ursula fon der Leyen qeyd edib. O, əlavə edib ki, bu il üçün nəzərdə tutulan iki forum tərəqqinin qiymətləndirilməsinə və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinə imkan verəcək.

Mərkəzi Asiya dövlətlərinin başçıları da bəyanatlarla çıxış ediblər və humanitar mübadilələr - bütün bunlar keçmişdə qaldı, "Bu gün Mərkəzi Asiya vahid aktor kimi çıxış edir" deyib. AYİB-in (Avropa Yenidənqurma və İnkişaf Bankı) proqnozlarına görə, bu il regional ÜDM 6%-ə qədər artaraq, qlobal orta göstəricini əhəmiyyətli dərəcədə üstələyəcək.

Özbəkistanın Aİ ilə qarşılıqlı fəaliyyətinə gəlincə, o bildirib ki, respublika Mərkəzi Asiya regionundan Avropaya elektrik enerjisinin tədarükü üzrə beynəlxalq layihəni dəstəkləyir. 2030-cu ilə qədər Özbəkistan enerji balansında bərpa olunan enerjinin payını 54%-ə çatdırmağı və 24 min MVt yaşıl gücü tətbiq etməyi planlaşdırır. Təmiz enerji üzrə Mərkəzi Asiya-Aİ tərəfdaşlığının başlanması bu sahədə qarşılıqlı fəaliyyət üçün mühüm platforma ola bilər. Özbəkistanla Aİ ölkələri arasında ticarət dövriyyəsi 2020-ci ildən iki dəfə artaraq 6 milyard avronu keçib. Eyni zamanda, bu dövr ərzində Özbəkistandan malların ixracı 4 dəfə artıb. Respublikada mindən artıq birgə müəssisə fəaliyyət göstərir. Avropa şirkətləri ilə investisiya layihələrinin portfeli 30 milyard avronu ötür. Bu il Özbəkistan və Aİ arasında Genişləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması gözlənilir.



Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Ukrayna üzrə danışıqların başlanmasını alqışlayıb, çətin vəziyyətə baxmayaraq, müsbət nəticəyə ümid etdiyini bildirib. Tokayev qeyd edib ki, Qazaxıstan 175 əmtəə növü üzrə ixracı 2 milyard dollar artırmağa hazırdır. O xatırladıb ki, Qazaxıstan Aİ-yə neftin 13%-ni verir, Total, Eni və Svevind şirkətləri ilə bərpa olunan enerji mənbələri və "yaşıl" hidrogeni inkişaf etdirir, həmçinin Özbəkistan və Azərbaycanla Xəzər dənizi vasitəsilə elektrik ötürücü xətləri tikir. Ölkə Aİ-nin 34 kritik resursundan 19-u, o cümlədən uran, litium və kobalt istehsal edir. Tokayev Astanada nadir torpaq metalları mərkəzinin yaradılmasını təklif edib və TMTR boyunca konteyner daşımalarının 62 faiz artdığını (4,5 milyon tona qədər) qeyd edib. Görünür, Qazaxıstan Aİ və Çindən bu marşrutun işlənməsində iştirak etməkdə qarşılıqlı marağa ümid edir.

Tacikistan prezidenti Emomali Rahmon Aİ-ni ölkənin yaşıl enerji sektoruna sərmayə qoymağa çağıraraq, Aİ ilə tərəfdaşlığın inkişaf etdirilməsinin Tacikistanın xarici siyasət prioritetlərindən biri olduğunu qeyd edib. O, Aİ-yə ixracın genişləndirilməsində, Avropa şirkətlərindən investisiya və texnologiyanın cəlb edilməsində maraqlı olduğunu bildirib. Rəhmon bərpa olunan enerji mənbələrinin milli və regional ehtiyaclar üçün əhəmiyyətini vurğulayıb.

Qırğızıstan prezidenti Sadır Japarov Avropa bizneslərini respublikanın "artan tranzit potensialının", "irimiqyaslı hidroenergetika layihələrinin" və "həqiqi xammalın işlənməsinin" inkişafında fəal iştirak etməyə çağırıb.

Türkmənistan prezidenti Serdar Berdiməhəmmədov iqlim dəyişikliyi məsələlərində Aİ ilə əməkdaşlığın vacibliyini vurğulayıb. O, prioritetləri müəyyənləşdirməyə və onların həyata keçirilməsi üçün şərait yaratmağa çağırıb, Aİ-nin iqlim gündəmində perspektivli tərəfdaş olduğunu qeyd edib. Ölkədə xüsusi komissiya yaradılıb, beynəlxalq əməkdaşlıq üçün yol xəritəsi qəbul edilib və artıq metan emissiyalarının 11 faiz azaldılmasına nail olunub. Berdiməhəmmədov Aİ-ni Türkmənlərin ekoloji təşəbbüslərini dəstəkləməyə çağırıb.

Beləliklə, Aİ-Mərkəzi Asiya sammitinin nəticələri məhdud effektli olub. O, fon der Leyenin 2024-cü ildə Transxəzər dəhlizinə 10 milyard avro ayrılması ilə bağlı bəyanatını əsassız hesab edir. Birincisi, Aİ belə vəsait ayırmayıb. Əvvəllər vəd edilmiş 1,5 milyard avro birbaşa investisiyalar deyil, kredit zəmanətləri idi. İkincisi, Xəzər limanlarının məhdud imkanları və Gürcüstan ərazisindən keçən dəmir yolunun yenidən qurulması səbəbindən Aİ ilə Mərkəzi Asiya arasında əsas ticarət axını hələ də Rusiyadan keçir. Kritik faydalı qazıntılar üzrə sazişlər yeni deyil, çünki Qazaxıstan və Özbəkistan artıq Aİnin tədarükçüləridir.

Məhdud effektivliyin bir neçə səbəbi var: Aİ-nin ideoloji böhranı, Ukrayna münaqişəsi və daxili fikir ayrılıqları. Bu şərtlər altında Mərkəzi Asiya ilə əməkdaşlıq prioritet deyil. Avropa ölkələrinin Rusiyaya qarşı sanksiyalardan sonra iqtisadi çətinlikləri də investisiya imkanlarını məhdudlaşdırır, baxmayaraq ki, Avropa şirkətləri artıq regionun xammal sektorunda mövcuddur. Coğrafi məsafə və ideoloji fərqlərin çoxu Rusiya ilə birbaşa əlaqədir. İndi bu, siyasi baxımdan dəbdə deyil, demək olar ki, hər şey siyasi və ideoloji cəhətdən işləsə də, regionlar da tamamilə fərqli dünyalardadır ki, bu da bizə Mərkəzi Asiya ilə Avropa İttifaqı arasında real strateji qarşılıqlı əlaqə haqqında danışmağa imkan vermir. Beləliklə, gözəl mənzərəyə və rəsmi bəyanatların təntənəli tonuna baxmayaraq, Aİ və Mərkəzi Asiya hələ də tərəfdaşa çevrilməyiblər.

**V.VƏLİYEV**

# Böyük Qayıdış:
## Suqovuşana növbəti köç

Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması ilə Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Ermənistan tərəfindən işğal altında saxlanılmış ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılıb, milli-mədəni irsimiz məhv edilib, təbii sərvətlərimiz talan olunub. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir.

İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Suqovuşanda da abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, bərpa işləri uğurla davam etdirilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. Prezidentimiz təməlqoyma və açılış







mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, tapşırıq və tövsiyələrini verir.

Suqovuşan kəndinə ilk köç prosesi 20 ailəni əhatə edib. Bu proses mərhələli şəkildə aparılır və kənd sakinləri doğma yurdlarında firavan yaşayırlar. Kəndə köçlə bağlı, ümumilikdə, 180 ailə (591 nəfər) siyahıya alınıb. Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən sakinlərə evlərin açarlarını təqdim ediblər.

### 185 NƏFƏR KEÇMİŞ MƏCBURİ KÖÇKÜN DOĞMA YURDA QOVUŞUB

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Aprelin 7-də respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdərə rayonuna çatıb. Bu gün artıq Ağdərə rayonunun Suqovuşan kəndində 53 ailə olmaqla, 185 nəfər keçmiş məcburi köçkün doğma yurda qovuşub.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

Xatırladaq ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatının elə ilk günündə düşmənin illərdir möhkəmləndirdiyi və "keçilməz" adlandırdığı ön müdafiə xətti yarıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz və Talış kəndlərini işğaldan azad etdi. Bu xoş müjdəni tviter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı Madagizin tarixi adını da bərpa edərək, onu Suqovuşan adlandırdı. Beləliklə, 1990-cı illərin əvvəllərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Suqovuşan və Talış kəndləri Vətən müharibəsinin yeddinci günündə azadlığına qovuşdu.

Suqovuşan və Talış Azərbaycan Ordusu üçün çox böyük strateji əhəmiyyətə malik ərazilərdən idi. Suqovuşanın azad edilməsi ilə mühüm əhəmiyyətə malik təminat yolları Azərbaycanın nəzarətinə keçdi. Bu döyüşlərdə Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirdi. Suqovuşan və Talışdakı yüksəkliklər strateji baxımdan çox əhəmiyyətli olduğundan bu yaşayış məntəqələrinin azad edilməsi Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə saxlamaq imkanı verdi.

### DOĞMA YURDA



### QOVUŞMAQ SEVİNCİ

İndi işğaldan azad olunan digər ərazilərimiz kimi, Suqovuşanda da dövlətimiz tərəfindən genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir. Artıq Suqovuşan ilk sakinlərini qarşılayıb və insanlar uzun illər sonra doğma yurda qovuşmağın sevincini yaşayırlar.

Artıq Ağdərə rayonunun Suqovuşan kəndində məscid açılıb. Eyni vaxtda 100-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti də yaşıllaşdırılıb. İbadət ocağının daxilində xüsusi bəzək elementlərindən istifadə olunub. Bu məsciddə yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsünə və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib və ya əsaslı şəkildə bərpa edilib. İşğal zamanı məscidlərimiz də vəhşiliklə dağıdılıb, 67 məsciddən 65-i məhv edilib. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işləri çərçivəsində yeni məscidlərin inşası da mühüm yer tutur. Suqovuşan kəndindəki məscidin tikintisi, eyni zamanda, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

### KEYFİYYƏTCƏ YENİ OLAN STRATEJİ İNKİŞAF MƏRHƏLƏSİ

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda "istirahət kompleksi layihəsi" icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.

Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. prioritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir. İnkişaf strategiyası nəticəsində dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir.

Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa - quruculuq işləri planlı şəkildə həyata keçirilir. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və bu ərazilərdə reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, əzəli torpaqlarımız yenidən dirçəlir, inkişaf edir, əzəli sakinlər yurd yerlərinə qayıdırlar.

***Zümrüd BAYRAMOVA***

# Məşhur "Üçlü tarama" testi nədir?

***Doğum əvvəli skrininq testlərinə həm körpənin inkişafını qiymətləndirmək, həm də hamiləliyin anaya təsirini müşahidə etmək üçün fasilələrlə həyata keçirilən müxtəlif testlər daxildir. Ana və körpə standart tarama testləri ilə sistematik olaraq qiymətləndirilərkən, hamiləlik, doğum və doğuşdan sonrakı dövrdə ortaya çıxa biləcək müxtəlif sağlamlıq problemləri vurğulanır.***

Hamiləliyin ikinci trimestrində həyata keçirilən üçlü skrininq testləri yüksək riskli hamilələri əvvəlcədən aşkar etmək, Daun sindromu kimi xromosomla əlaqəli xəstəliklərin doğumdan əvvəl aşkarlanması və doğumun həm ana, həm də körpə üçün mümkün olan ən sağlam şəkildə həyata keçirilməsini təmin etmək üçün son dərəcə əhəmiyyətlidir. SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Üçlü skrininq testi nədir?

Körpədə baş verə biləcək müxtəlif xəstəliklərin risklərini müəyyən etmək üçün hamiləlik dövründə skrininq testləri aparılır. Hamiləliyin ikinci trimestrində aparılan üçlü skrininq testi ilk növbədə yüksək riskli hamilələri aşkar edir və həkimə ətraflı müayinə aparmağa istiqamət verir. Bütün tibbi testlər kimi, üçlü skrininq testi də 100% diaqnostik deyil, yalnız prosesin daha ətraflı müayinəsi üçün bələdçi rolunu oynayır.





## Tarixi

İlk dəfə 1980-ci illərdə tətbiq edilən üçlü skrininq testi əvvəlcə yalnız Daun sindromunu erkən mərhələdə aşkar etmək üçün istifadə edilirdisə, bu gün trisomiya 18 və trisomiya 21 kimi mühüm xromosom anomaliyalarının və körpədə ciddi inkişaf problemlərinə səbəb ola biləcək sinir borusu qüsurlarının prenatal aşkarlanması üçün üstünlük verilir.

Bundan əlavə, son zamanlarda edilən bir çox araşdırmaya uyğun olaraq, üçlü skrininq testinin nəticələrinin genetik xəstəliklərlə yanaşı körpə ilə bağlı bir çox sağlamlıq probleminə də fikir verdiyini söyləmək mümkündür.

MS AFP, hCG və konyuqasız estriol (uE3) səviyyələrini qiymətləndirən bu test sayəsində yüksək riskli hamilələri erkən mərhələdə aşkar etmək mümkündür.

Cəmiyyətdə hamiləlik zəhərlənməsi olaraq da bilinən preeklampsi xüsusilə 35 yaşdan yuxarı qadınlarda olduqca tez-tez rast gələnən və həm ananın həyatını, həm də körpənin sağlam inkişafını riskə atan ciddi hamiləlik fəsadlarından biridir. Ananın təzyiqinin qəfil artması ilə müxtəlif orqan funksiyaları pozulur, xüsusən də böyrəklər. Nəticədə plasentaya qan axını azalır və qan dövranı pozğunluqları səbəbindən körpədə ciddi sağlamlıq problemləri yaranır.

Son illərdə skrininq testləri ilə bağlı aparılan araşdırmalara uyğun olaraq, üçlü skrininq testi sayəsində anada orqan itkisi və hətta ölümlə nəticələnə bilən bu ciddi hamiləlik komplikasiyasının riskinin erkən mərhələdə aşkar oluna biləcəyini söyləmək mümkündür. Bundan əlavə, AFP, hCG və konyuqasiya olunmamış estriol (uE3) səviyyələrinin ana yaşı ilə birlikdə qiymətləndirilməsi hamiləlik diabetinin, körpədə intrauterin inkişafın geriləməsinin (IUGR) və bəzi oxşar mənfi hamiləlik nəticələrinin erkən aşkarlanmasında faydalı ola bilər.

## Üçlü skrininq testi necə aparılır?

Hamiləlik həm ana, həm də körpə üçün son dərəcə mürəkkəb bir prosesdir və müxtəlif sağlamlıq problemlərinə səbəb ola bilər. Hamiləlik zamanı yarana biləcək problemləri aşkarlaya bilmək və körpənin inkişafını düzgün qiymətləndirə bilmək üçün müntəzəm hamiləlik müayinələrinə diqqət yetirmək son dərəcə vacibdir. Körpədə görülən intrauterin böyümə geriliyi (IUGR) bir çox əsas xəstəliklərin göstəricisi ola bilər. Bu səbəblə hamiləliyin əvvəlindən planlaşdırılan müntəzəm həkim müayinələrinə davam etmək və bütün rutin skrininq testlərini etmək lazımdır.

İkinci trimestr deyilən 3-6 aylıq dövrdə edilən üçlü tarama testi körpədə görülən müxtəlif genetik xəstəliklər haqqında məlumat verir. Adətən 16-18 həftədə. Hamiləliyin 10-cu həftəsində tətbiq edilən bu test üçün ilk olaraq anadan qan nümunəsi götürülür və qanda alfa-fetoprotein (AFP), ümumi beta-insan xorionik gonadotropin (hCG) və konyuqasiya olunmamış estriol (uE3) səviyyələri ölçülür. Bu nəticələr daha sonra hamiləlik həftəsinə görə median dəyərlərə bölünərək MoM-ə (Multiple of Median) çevrilir. Əldə edilən nəticələr qiymətləndirilərkən, ananın yaşı, qan nümunəsinin alındığı hamiləlik həftəsi və bir çox digər kriteriyalar hesablanır və xəstə üçün xüsusi olaraq nəzərə alınır. Əvvəlcə yalnız Daun sindromunu aşkar etmək üçün tətbiq edilən bu üçlü testə indi bir çox genetik xəstəliklərin prenatal aşkarlanması üçün üstünlük verilir.

## Üçlü skrininq testi nə vaxt aparılır?

Yüksək riskli hamilələri aşkar etmək üçün skrininq testləri hamiləliyin müxtəlif mərhələlərində müxtəlif üsullarla tətbiq oluna bilər. Birinci trimestrdə aparılan ikili testin nəticələri bir çox xəstəliklər haqqında məlumat versə də, tez-tez bu testin gələcəkdə üçlü skrininq testi ilə birlikdə yenidən qiymətləndirilməsi tələb olunur. Üçlü skrininq testi hamiləliyin ikinci trimestrində edilən testlər arasındadır və çox vaxt hamiləliyin 16-18-ci həftələri arasında aparılır.

Testin etibarlı nəticələr verməsi üçün qanda alfa-fetoprotein (AFP), ümumi beta-insan xorionik gonadotropini (hCG) və konyuqasiya olunmamış estriol (E3) səviyyələrini lazımi zamanda ölçmək son dərəcə vacibdir. Bu səbəblə rutin müayinələr kəsilməməli və həkimin təyin etdiyi gündə analiz aparılmalıdır.

## Yüksək üçlü test balları nə deməkdir?

Təkcə üçlü skrininq testində ölçülən konyuqlaşdırılmamış estriol (E3), beta-insan xorionik gonadotropin (hCG) və alfa-fetoprotein (AFP) səviyyələrinin qiymətləndirilməsi çox vaxt testin yanlış təfsirinə səbəb olur. Etibarlı bir nəticə əldə etmək üçün bu dəyərlər ananın yaşı, qan nümunəsinin götürüldüyü hamiləlik həftəsi və s. kimi müəyyənedici amillərlə birlikdə şərh edilməlidir. Ancaq üçlü test nəticələri normaldan fərqli olarsa, bu, bəzi xəstəliklərin, xüsusən də xromosom anomaliyalarının artması riskini göstərə bilər.

Yüksək AFP və hCG səviyyələri və aşağı konyuqasiya edilməmiş estriol (E3) səviyyələri, ehtimal ki, xromosom anomaliyasının və ya sinir borusu qüsurunun əlamətidir. Bununla belə, yüksək AFP dəyərlərinə baxmayaraq, heç bir sinir borusu qüsuru və ya xromosom anomaliyaları ola bilməz və demək olar ki, aşağı çəki, vaxtından əvvəl doğuş ağırlaşmaları, intrauterin böyümə geriliyi (İUGR), oliqohidramnios, fetal distres, gestational hipertoniya, preeklampsiya və fetal/ölüm preeklampsi kimi ağırlaşmalar daha çox rast gəlinir. Bundan əlavə, xromosom olaraq normal olaraq qiymətləndirilən, lakin hCG səviyyələri qanda yüksək ölçülən hamilə qadınlarda gestational hipertoniya riski artır. Yenə də, vaxtından əvvəl doğuş, aşağı doğum çəkisi və IUGR baxımından normal hCG səviyyələrindən yüksək olan hamilə qadınlar üçün yaxından izləmə tövsiyə olunur. Nəhayət, bilinməlidir ki, üçlü skrininq testində normal konyuqasiya olunmamış estriol səviyyələrindən aşağı olması da hamiləliyin səbəb olduğu hipertoniya ilə əlaqələndirilir. Ana preeklampsi üçün yaxından izlənilməli olduğu halda, körpə intrauterin inkişafın ləngiməsi və dölün ölümü kimi ağırlaşmalar üçün izlənilməlidir.

Üçlü skrininq testi, Daun sindromu, trisomiya 18 və trisomiya 21 kimi xromosom anomaliyaları haqqında məlumat verən ən əhəmiyyətli hamiləlik testlərindən biridir. Körpənin inkişafını ən doğru şəkildə izləmək və erkən mərhələdə ortaya çıxa biləcək genetik problemləri aşkar etmək üçün hamiləliyin müntəzəm təqibi çox vacibdir. Həm ananın, həm də körpənin sağlamlığına təsir edən bir çox hamiləlik problemi rutin müayinələr və standart müayinə testləri ilə asanlıqla aşkar edilə bilər. Bu məqsədlə hamiləlik müşahidə edildiyi gündən mütəxəssis həkimə müraciət edilməlidir. Bütün hamiləlik prosesi həkimin tövsiyələrinə uyğun olaraq yaxından izlənilməlidir. Körpənin inkişafı ilə bağlı yarana biləcək ciddi sağlamlıq problemlərini gecikmədən aşkar etmək və sağlam hamiləlik prosesini nəzarət altında saxlamaq üçün üçlü tarama testindən keçməyi unutmayın.

***Ayşən Vəli***

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| I | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 23132 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 43786 |
| 2 | **Qısamüddətli aktivlər** | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X | 5 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 5 |
| | Cəmi qısamüddətli aktivlər | | 5 |
| | CƏMİ AKTİVLƏR | | 43791 |
| | **KAPİTAL VƏ ÖHDƏİKLƏR** | | |
| 3 | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (78885) |
| | Cəmi kapital | | 21830 |
| 5 | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 21961 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 21961 |
| | **Cəmi öhdəliklər:** | | 21961 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 43791 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ MALİYYƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 13140 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 13140 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 8280 |
| 2. | DSMF, İTS və işsizlik fonduna | 2029 |
| 3. | Vergi ödəmələri | 1120 |
| 4. | Amortizasiya xərcləri | 2084 |
| 5 | Sair xərclər | 1474 |
| | Cəmi xərc: | 14987 |
| | Əsas fəaliyyətin mıticəsi -Ziyan | 1847 |
| | Ümumi nəticə -Ziyan | 1847 |

"Şamaxı Sərnişin" ATSC-nin İdarə heyyətinin sədri: Nəhmətov M.Ə.



FELYETON

# Piknik deyiləndə...

Piknik mövsümü gəldiyi üçün elə piknikdən danışmağın da vaxtının çatdığını düşünüb bu barədə bir qədər söhbət açmağın yerinə düşdüyünü zənn etdim. Piknik nədir? Əvvəllər lüğətimizdə olmayıb sonradan xeyli söz kimi özünü dilimizə daxil edib piknik. Pikniki lüğətimizə daxil edənlər onun qrup şəklində istirahət mənasında olduğunu qeyd ediblər.

Lakin təəssüf ki, piknik deyiləndə bizdə gözlər önünə gələn ilk görüntü zibillik olur. Yəni insanlar düşünürlər ki, mən gedirəm piknikə, yəni ki, abad bir yeri bərbad etməyə. Yəni ki, təmiz bir yeri zibilləməyə. Yəni ki, gedib yeyib-içib, tullantıları da elə oraya dağıdıb gəlməyə. İnanırsınız, inanın, inanmırsınız da, bu, sizin öz işinizdir, piknik bizdə zibilləmək deməkdir.

Yaxşı, bəlkə də qalxıb mənim dediklərimlə razılaşmayanlar olacaq. Olsun, nə deyirəm ki... Razılaşmamaq olar, lakin dediyin sözü sübut etməlisən. Bunun üçün də indi ki, piknik sezonu başlayıb, çıxsın gəzməli-görməli yerlərə, parklara, meşələrə, harada bir qrup adamın yığışdığını, əyləşdiyini görsəniz, bilin ki, onlar piknikdədirlər. Bir qədər əziyyət çəkin, gözləyin, onlar qalxıb gedəcəklər. Burada gördüklərinizdən sonra mənimlə razılaşacaqsınız ki, bizdə piknik zibillik deməkdir. Pikniklə bağlı yaranan söz, söz birləşmələri və cümlələr:

-Piknik-zibil

-Piknikə gedirəm-zibilləməyə gedirəm

-Piknikdən gəlirəm-abad yeri bərbad etməkdən gəlirəm

-Gözəl piknik etdik-ətrafı yaxşıca zibillədik

-Bu həftə piknikə getməyək?-bu həftə yaşıllıqları zibilləməyək

Bax, dilimizə daxil olan bu sözdən qaynaqlanan arzu və istəklər yalnız yuxarıdakıları ifadə edir.

Yaxşı piknik etməyi qoyaq bir kənara. Molla əminin ruhunu çağırıb onunla bir qədər söhbətləşdim. Dedim, ay Molla əmi, dilimizi yaman günə qoyublar, gəl, gör. Gündə bir sözü lüğətə daxil edirlər. Molla əmi nə desə yaxşıdır?

- Əlbəttə, səninlə razıyam. Çünki mən bu insanları yaxşı tanıyıram. Bunlar biz zaman küftəyə "qofta" deyən abrazovannılardır da. İndi də istirahətə piknik deyirlər. Ay bala, sən bizim yanımızda uşaqsan. Biz bu insanlara illərlə dedik-dedik, bir qulaqlarından alıb o birindən ötürdülər havaya. İndi sən nəyi qoyub, nəyi danışırsan? Bilirəm, yaxşı bilirəm ki, bunlar düzələn deyil. Ona görə də barı siz dayanıb-durmayın. Bir ucdan yazın ki, bəlkə arada bir nəfərin qulağının açıq vaxtına düşər, eşidər və o birilərə də deyər...

Yaxşı, piknikə "istirahət" demirik, heç olmasa istirahət etdiyimiz yerləri bərbad etməyək...

*Mətanət Məmmədova*

# Aleksandr Razuvayev: "İlham Əliyev ağıllı siyasətçi kimi hər şeyi hesablayır"

***Tanınmış rusiyalı politoloq Aleksandr Razuvayev "Moskva-Baku" portalına müsahibəsində Nikol Paşinyanın Ermənistanın siyasi məkanını Qarabağ məsələsindən təmizləməsini və revanşist müxalifətin buna qarşı çıxmaq cəhdlərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Aleksandr Yuryeviç, Ermənistanın baş naziri bəyan etdi ki, Qarabağ hərəkatı daha mövcud ola bilməz. Bu fonda respublikada növbəti dəfə arxiyepiskop Baqrat Qalstanyan kimi müxalifətçilər meydana çıxıb, əhalini Paşinyana qarşı birləşməyə çağırıb, onu şər adlandırıb, mahiyyət etibarı ilə Qarabağ ideyasını təbliğ etməyə başlayıblar...***

- Təbii ki, Baş nazirin işləyib hazırladığı "Real Ermənistan" konsepsiyası, Ermənistan Respublikasının digər dövlətlərə qarşı tarixi iddialarını rədd etməsi, tarixi problemlərə, o cümlədən radikal millətçi Qarabağ








ideyasına diqqət yetirməkdən imtina etməsi- bu, ilk növbədə, Ermənistanın bir dövlət kimi gələcəyi üçün rasional və xeyirlidir. Dövlətin inkişafı, güclənməsi üçün iqtisadiyyatın inkişafı, qonşularla dost olması lazımdır. Qonşularla normal münasibətlər həm də Ermənistan iqtisadiyyatına investisiyaları nəzərdə tutur. Bu da əhalinin həyat səviyyəsinin yüksəlməsi deməkdir. Azərbaycan ərazilərinin işğalı nəticəsində Ermənistanın onilliklər ərzində yaşadığı kimi mühasirəyə alınmış qala formasında əbədi yaşamaq mümkün deyil. Ermənistan Respublikasında millətçi Qarabağ ideyası dövlət və xalq üçün yaxşı heç nəyə gətirib çıxarmadı, sadəcə yoxsulluğa, müharibəyə apardı.

Təəssüflər olsun ki, indi Ermənistanda bir çox insan "müharibədə uduzduq" sindromundan əziyyət çəkir. Amma Azərbaycan ərazilərinə iddialar və onların işğalı olmasaydı, Ermənistan bu illər ərzində qonşuları ilə yaxşı münasibətlər quraraq inkişaf edə bilərdi. Baş verənlər həm azərbaycanlılar, həm də ermənilər üçün vaxt itkisi və faciə idi. 2020-ci ildə Sergey Lavrov bəyan etmişdi ki, Ermənistan rəhbərliyi öz xalqına torpaqların qaytarılmalı olduğunu başa salmalıdır. Amma heç kim qulaq asmadı.

Ermənistanın Qarabağı yenidən işğal etməsi real deyil. Paşinyan bunu çox gözəl anlayır. Və əgər bəzi "qaynar" adamlar qisas almaq qərarına gəlsələr, bu, respublikanı dövlətçiliyin itirilməsi ilə hədələyir; dövlət sadəcə olaraq mövcudluğunu dayandıra bilər. Güc balansı müqayisəolunmaz olacaq.

Amma Ermənistanda müxalifət öz problemlərini həll etməyə çalışmaqla, əhalini emosional şəkildə qızışdırmaqla, millətçilik ideyaları ilə məşğul olmaqda davam edir.

***- Paşinyan qonşularla münasibətləri yaxşılaşdırmaq niyyətində nə dərəcədə səmimidir?***

- Onun sadəcə seçimi yoxdur. Ermənistanın baş naziri Paşinyan anlayır ki, o, ermənilərin həyatını yaxşılığa doğru dəyişə bilər, iqtisadiyyatın imkanlarını anlayır. Amma düşünmürəm ki, tarixi vəziyyət fərqli olsaydı, o, eyni şeyi edərdi. Amma siyasət mümkün olanın sənətidir.

Biz görürük ki, Paşinyan, prinsipcə, erməni siyasi meydanını Qarabağ separatçılarından "təmizləmək" yolunu seçib və ya ən azı, daha böyük ölçüdə buna cəhd edir. O, 2023-cü ilin sentyabrında Azərbaycan ərazi bütövlüyünü tam bərpa etdikdən dərhal sonra Qarabağ gündəmini yığışdırmağa başladı. Eyni zamanda rəsmi İrəvan Ermənistana qaçan və Qarabağla bağlı bəzi şüarlarla çıxış etməyə çalışan separatçılara bəyan etdi ki, heç bir mitinq və çağırış olmamalıdır, çünki bu, Ermənistanın dövlətçiliyinə və onun təhlükəsizliyinə zərbə vurmaq cəhdi kimi yozulacaq. Prinsipcə, Paşinyan bu istiqamətdə vəziyyəti nəzarətdə saxlaya bilib və son illər müxalifətin təşkil etdiyi bütün mitinqlər boşa çıxıb.

Cənab Paşinyan erməni milləti üçün iki bəladan ən zəifidir. İndi isə məntiqlidir ki, onun növbəti addımı Azərbaycana qarşı ərazi iddialarını Ermənistan Konstitusiyasından çıxarmaq olmalıdır. Bundan sonra münasibətlərin normallaşması üçün açıq yoldan danışmaq mümkün olacaq və Ermənistan investisiya şəklində özü üçün bonuslar alacaq.

Və təbii ki, cənab Əliyev ağıllı siyasətçi kimi hər şeyi hesablayır, sülh müqaviləsinin hər bir təfərrüatı elə işlənir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində gələcəkdə Ermənistanın Azərbaycana ziyan vura biləcək nədənsə yapışmaq imkanı olmasın. Gələcək üçün potensial risklər təhlil edilir. Əslində Qarabağ məsələsi bağlıdır, lakin Bakı haqlı olaraq Ermənistanın gələcəkdə bu məsələyə qayıtmasının qarşısını almaq üçün qanuni müstəvidə hər yeri aydınlaşdırmaq niyyətindədir. İrəvan Azərbaycanın şərtləri ilə sülh müqaviləsi imzalamalı olacaq. Əks halda, Ermənistan üçün hər şey 2020-ci ildə olduğu kimi ola bilər, onu oradan qovub çıxardılar... Bəs bu nə ilə nəticələndi?

Bundan əlavə, təbii ki, heç nə regionu revanşistlərin, "Qarabağ klanı"nın tərəfdarlarının Ermənistanda hakimiyyətə gəlmək perspektivindən qoruya bilməz. Belə qüvvələr hakimiyyətə gələrsə, Azərbaycanla Ermənistan arasında münasibətlərin kəskinləşməsi qaçılmazdır. Amma bu baş verməsəydi, daha yaxşı olardı. Çünki hər hansı bir ölkədə hakimiyyət millətçi olanda o ölkə üçün yaxşı heç nə ola bilməz. Ermənistan üçün isə belə ssenaridə yaxşı heç nə baş verə bilməz. Radikal millətçilər öz xalqlarının ən qatı düşmənləridir. Qarabağ ideyasının tərəfdarları hakimiyyətə qayıdarsa, Ermənistanın bu gün ermənilərin ağlına belə gətirə bilməyəcəyi çox ciddi problemlər yaranacaq. Yaxşı olardı ki, Ermənistandakı müxalifət və onu dəstəkləyənlərin hamısı reallığı etiraf etsinlər, xalqın sülh şəraitində yaşayıb inkişaf etməsinə şərait yaratsınlar.

*Tərcümə - Elçin Bayramlı*

# Avropada islamofobiya BMT-ni narahat etməyə başlayıb




Dünyanın müxtəlif bölgələrində baş verən amansız müharibələr, münaqişələr, vətəndaş qarşıdurmaları fonunda diqqətçəkən fəlakətli hallardan bir də bəzi dövlətlərdə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması hallarının yaşanmasıdır. Daha dəqiq desək, ilk baxışdan sakit, sabit məkan olaraq görünən Avropada milli, dini, irqi ayrı-seçkiliyə yol verilməsi hallarının kütləvi xarakter alması dünyanın tərəqqipərvər, sülhsevər xalqlarını həyəcan təbili çalmağa məcbur edib. Xüsusilə də, Avropada müsəlmanlar daha çox təqib olunur, təhqir edilir, dini inanclarına görə həbs edilək zindanlara atılırlar. Bəzən isə, zorakılıq halları o dərəcədə amansız xarakter alır ki, Avropa və ABŞ-nin quduran polisləri müsəlmanları silahdan açılan atəşlə öldürürlər. Hüman Rigs beynəlxalq insan hüquqlarının müdafiə təşkilatı vicdana gələrək açıqladığı hesabatında etiraf edib ki, dünyada insan azadlıqlarının pozulması halları daha çox ABŞ və Avropa ölkələrində baş verir. Təşkilatın 2024-cü il üçün yaydığı hesabatında bildirilir ki, ABŞ-da 24678 nəfər, Almaniyada 13860 nəfər, Fransada 9234 nəfər, Niderlanda 7698 nəfər, Belçikada 7543 nəfər, Yunanıstanda isə 6589 nəfər müsəlman dini inancına görə polislərin, eləcə də yerli əhalinin təhqirlərinə və zorakılıqlarına məruz qalıb. Hətta antiislam meyilli və radikal düşüncəli, milliyyətçi avropalılar müsəlmanların ibadət evlərinin qapısına donuz başını asmaqdan belə çəkinmirlər. Bəzi hallarda isə məscidlərin divarlarına yazılmış "müsəlmanlara ölüm", "rədd olun" şüarlarına da rast gəlmək mümkündür. Belə faktların kifayət qədər çox olması onu təsdiq edir ki, hakimiyyətlər bilərəkdən ksenofob və islamofob meyilləri aktuallaşdırmasında maraqlıdır.







## İslamofobiya bəşəriyyətə qarşı atılan atəşdir

Dəfələrlə dünya birliyi, xüsusilə BMT-nin müvafiq strukturları Avropa ölkələrinin hakimiyyətlərindən miqrantlara, əsasən də müsəlmanlara qarşı ayrı-seçkiliyi, zorakılıq hallarını dayandırmaq barədə çağırışlar etsə də, nəticəsi olmayıb. Bu yaxınlarda Bakıda keçirilən və dünyanın 32 ölkəsindən alimlərin, beynəlxalq təşkilatların ekspertlərin, din xadimlərinin və qeyri-hökumət təşkilatlarından 130-dan çox nümayəndənin iştirak etdiyi "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransda Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri Ayman Mazyek çıxışında Avropada dini ayrı-seçkiliyə yol verildiyini və islamofobiyanı bəşəriyyətə qarşı atılan atəş olduğunu söylədi. Bildirdi ki, Azərbaycan bu sahədə çox vacib addımlar atır: "Prezident İlham Əliyevin forum iştirakçılarına müraciəti zamanı vurğuladığı fikirlər tamamilə doğrudur. İslamofobiya kimi hallar bəşəri dəyərləri alt-üst edir. Qərb ölkələrində milli azlıqlara qarşı edilənlər göz önündədir. Ayrı-seçkiliyin ən böyük təzahürlərindən biri ikili standartlardır. Məsələn, Avropada müqəddəs kitab "Qurani-Kərim"in yandırılması normal qarşılanır. Ancaq həmin ölkələrdə Tövrat, İncil yandırıla bilməz. İslamı terrorçu din kimi qələmə verənlər xristianların törətdiyi terror aktlarına səssiz qalırlar. Bütün bunlar tamamilə ikili standartlardır". Uelsin "Trinity St David" Universitetinin elmi işçisi Mohammed Sadek Hamid çıxışında bildirdi ki, biz islamofobiya ilə bağlı konkret olaraq nələrin baş verdiyinin fərqindəyik. Bunun həlli üçün məsələnin kökünü bilməliyik: "Biz təxminən 20 il ərzində müxtəlif dinlərin vəhdətini görürük. Müsəlmanlara qarşı nifrət hissinin və ayrı-seçkiliyin necə vüsət aldığının şahidi oluruq. Avropada buna yer olmamalıdır. Avropada məscidlərə qarşı da arzuolunmaz hadisələr törədilir. Müsəlmanlara fiziki hücumların, xüsusilə də qadınlara qarşı zorakılığın şahidi oluruq. Hətta müsəlmanların məzarlarında cəsədlərə qarşı törədilən əməllər çox xoşagəlməzdir. İslamofobiya hamı üçün problemdir".

Mohammed Sadek onu da qeyd edib ki, Böyük Britaniyada da müsəlmanlara qarşı münasibət dəyişməlidir. Bəzi siyasi qərarlarda mühüm dəyişikliklər edilməlidir. Eyni zamanda, mediadakı fikirlər müsbət istiqamətdə dəyişə bilər. Bu problemə qarşı birlikdə uğurlu mübarizə aparıla bilər.

Avropa İnkişaf və Araşdırma Akademiyasının (EDARA) baş direktoru Brahim Laytouss müsəlmanların səlahiyyətlənməsinin və güclənməsinin çox vacib amil olduğunu deyib. Qeyd edib ki, Avropa müsəlmanları oranın vətəndaşlarıdır, orada 25 milyon müsəlman məskunlaşıb. Onlar vətəndaş kimi cəmiyyətin inkişafında iştirak etməlidirlər.

Onun sözlərinə görə, müsəlmanlar İslam diskursunu yeniləməli, alternativ təkliflər verməlidirlər. "Biz müsəlman və qeyri-müsəlman arasında fərq qoymuruq. Biz Avropanın bir hissəsiyik. Belçikada İslam din kimi 1974-cü ildən dövlət səviyyəsində təsdiqlənib. Bu ölkənin təhsil müəssisələrində 3 mindən çox müəllim din dərsi keçir", - deyə Laytouss əlavə edib.

Avropa Parlamentinə keçirilən seçkilərdən söz açan baş direktor müsəlmanların bu prosesdə daha fəal iştirakının təmin edilməli olduğunu vurğulayıb. O deyib ki, Avropa Parlamentində müsəlmanlar, sadəcə, 11 faiz təşkil edir.

Pakistanda Siyasət Araşdırmaları və Təbliğat Mərkəzinin icraçı direktoru Əhsən Həmid diqqətə çatdırıb ki, Azərbaycanda milli azlıqların sülh içərisində yaşaması çox yaxşı nümunədir. Avropa ölkələri bu siyasəti mənimsəməli və tətbiq etməlidir.

İslamofobiyanın Avropada siyasi silaha çevrildiyinə diqqət çəkən Əhsən Həmid vurğulayıb ki, Qərb ölkələrində müsəlmanları təhdid kimi qələmə verirlər. "Müsəlman ölkələrindən Avropaya səyahət edənlərə viza verilməsi gecikdirilir, bəzən isə ümumiyyətlə verilmir. İslamofobiya partiyaların siyasətinə çevrilib. Qərb mediası isə ictimaiyyətdə qərəzli fikirlərin formalaşmasında çox böyük rol oynayır. Məscidlər bağlanır, müsəlmanlar üçün yeni ibadət yerlərinin açılması qadağan olunur. Ukraynalı qaçqınlarla Əfqanıstandan gələn köçkünlərə qarşı reaksiyalar eyni deyil. Fransada hicablı qadınlar iş yerlərindən qovulur, təhsildən uzaqlaşdırılır", - deyə icraçı direktor bildirib.

Ə.Həmid əlavə edib ki, müsəlmanlar məruz qaldıqları ayrı-seçkilik halları ilə bağlı təcrübələrini bölüşməlidirlər. Ancaq maariflənmək yolu ilə islamofobiya hallarının qarşısını almaq mümkündür.

ABŞ-nin Yeni Orlean şəhərindəki Tulane Universitetinin siyasət üzrə professoru Raymond Casimer Taras isə ABŞ-da islamofobiya ilə bağlı məlumatlılığın çox aşağı səviyyədə olduğunu söyləyib.

İslamofobiyaya rəvac verən daxili amillərə mütləq nəzər yetirilməli olduğunu vurğulayan professor deyib ki, islamofob düşüncəyə şərait yaradan, bir növ ona səbəb olan halların kökündə yanlış siyasət dayanır. Fəlsəfi olaraq bu vəziyyət islamofobiyanın dərin laylara keçməsinə, irqçi hərəkatların formalaşmasına və yayılmasına imkan verir. "Biz müstəmləkəçiliyə qarşı çıxış edirik. Neomüstəmləkəçiliyin necə geniş vüsət aldığını görürük. Bu məsələlərlə bağlı məlumatlılıq artırılmalıdır", - deyə o diqqətə çatdırıb.

Zalsburq Universitetinin sosiologiya və insan coğrafiyası kafedrasının dosenti Volfqanq Aşauer qeyd edib ki, iqlim dəyişmələri, Qərbdə baş verən müharibələr bədbinliyə qapılmağa səbəb olan amillərdir. Bütün bu mənfi amillər mədəni və sosial qütbləşməyə səbəb olur. Çox zaman isə problemlərə, sosial tənəzzülə görə müsəlman miqrantları qınayırlar.

## Avropada müsəlmanlara qarşı zorakılıq halları təhlükəli xarakter alır

Dünya birliyinin, xüsusilə də, BMT-nin yüksək tribunalarından Avropa və ABŞ rəhbərliyinə ölkələrində müsəlmanlara qarşı ayrı-seçkilyin, zorakılıq hallarının dayandırılması çağırışlarına başbilənlərin münasibət bildirməmələri onların törədilən qeyr-insani hallada maraqlı olduqlarını göstərir. Bu isə ölkə rəhbərlərinin Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın, eləcə də bu istiqamətdə beynəlxalq norma və prinsiplərin kobud şəkildə pozulmasıdır. Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın hüquqlar və azadlıqlar bölməsinin 2-ci maddəsinə (yaşamaq hüququ) əsasən hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa halda həyatından məhrum edilə bilməz. Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir:

(a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;

(b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

(c) qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması üçün.

Həmin Konvensiyanın 3-cü (İşgəncələrin qadağan olunması) maddəsində qeyd olunur ki, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

İnsan hüquqlarının müdafiəsindən, söz və vicdan azadlığından dəm vuran Avropa İttifaqı əməldə bölgədə kobud şəkildə insanların elementar hüquqlarını əlindən alır, söz azadlığına qarşı təhdidlərə, təzyiqlərə yol verir. KİV-lərin azad, müstəqil fəaliyyət göstərməsindən ümumiyyətlə söhbət gedə bilməz. Çünki KİV-lər tam şəkildə dövlətin və ya ayrı-ayrı böyük iş adamlarının nəzarəti altındadır. Bu yaxınlarda dünyaca məşhur milyarder İlon Mask bəyan etmişdir ki, "Avropanın, əsasən də Norveç TV-lərində yayımlanan verilişlər, saytlarında dərc olunan yazılar yüz faiz dezinformasiya və ya yalan üzərində qurulur". Belə bir acınacaqlı vəziyyətin hökm sürdüyü Avropadan ədalətli mövqe, insan azadlıqlarının hörmət gözləməyə dəyməz. Avropanın əksər ölkələrində yerli əhali ilə yanaşı hakimiyyət miqrantlara qarşı da zorakılıq hallarına yol verirlər. Yaxşı həyat, yüksək təminat arzusu ilə Avropa ölkələrinə üz tutan miqrantlar elə sərhəddə ciddi əngəllərlə üzləşməli olurlar. Bəzi hallarda müxtəlif məbləğdə rüşvət qarşısında ölkəyə buraxılan miqrantlar qalmaq üçün yer tapa bilmir və viza rejimi ilə üzləşir, iş tapmaqda ciddi problemlərlə qarşılaşırlar. Sonrakı mərhələdə isə hakimiyyətlərin göstərişi ilə Almaniya, Fransa, Niderland, Yunanıstan, Norveç və digər ölkələrin əhalisi tərəfindən miqrantlar təhqir edilir, döyülürlər. Miqrantların sözügedən ölkələrdə üzləşdikləri problemlər sırasında antisemit və islamofob meyillərin güclənməsi də ciddi problemlərdən hesab olunur. Almaniyada və Niderlanda getdikcə güclənən nasist təşkilatların üzvləri miqrantlara qarşı hər cür alçaldıcı mövqe sərgiləyirlər. Bu cür təhqiramiz səhnələr birbaşa polislərin gözü qarşısında baş versə də, asayiş keşikçiləri susmağa üstünlük verirlər. Bu da məsələnin yuxarı rəsmi orqanlarla razılaşdırıldığından xəbər verir. Söz yox ki, belə bir davranış həmin cəmiyyətlərin naşılığından və hələ də orta əsrlər təfəkküründə qalmalarından irəli gəlir. İnsanlığa fərqli yanaşma göstərən cəmiyyət və həmin cəmiyyətin hakim zümrəsi uzun ömürlü ola bilməz. Onlar gec və ya tez məvcudluqlarını itirməlidirlər.

***İLHAM ƏLİYEV***

# Gözəllik salonlarında tibbi müdaxilə

***Deyirlər gözəllik nisbi anlayışdır, birinin bəyəndiyi böyük dodaqlar başqa birinin xoşuna gəlmir. Başqasında gördüyünüz qaynaq saçlar sizə yaraşmasa belə onu israrla etdirirsiniz. Azacıq qırış düşmüş simasına dolğu etdirmək üçün həkimləri, gözəllik prosedurlarını günlərlə araşdıranlar da çoxdur. Kimi ucuza qaçıb gözəllik salonlarında mənşəyi məlum olmayan dolğuları öz dərisinə daxil etməyi heç bir tibbi savadı olmayan insanlara həvalə edir, kimisi də işin peşəkarına etibar edir.***




## Zərərçəkən: ”Dodaqlarım çürüyür”

Bəzən mediada da yayılır, dolğu qurbanları gözəllik salonlarında etdirdiyi prosedura görə sağlamlıq problemləri yaşadığını, iltihab yarandığını deyirlər. Türkmənistanda bu sahədə olduqca çox problem yaşandığı üçün hökumət gözəllik salonlarında tibbi müdaxilə prosedurlarının tətbiq edilməsini qadağan edib. Bir çox Avropa ölkəsində, habelə Amerikada süni gel tətbiqi qanunla qadağandır.

Gülər Həsənlini də sosial şəbəkədən tanıyıram, qadın səhifələrində dolğu ilə bağlı problem yaşadığını, dodağının çürüdüyünü yazırdı. 2 il əvvəl Bakıdakı gözəllik salonlarından birində dodağına ”gel” deyilən maddə vurdurduğunu deyir: ”Saçlarımı kəsdirmək üçün salona getmişdim, usta dedi ki dodaqlarıma gel vurulsa çox yaxşı görünər. Dedi 1 qramı 60 manatdır, həkimlər eyni miqdarda gel üçün 150-200 manat alırlar. Aldandım, vurdurdum dodağıma. O gündən sonra mən həkimlərdəyəm, dodaqlarımdan irin, çirk axır, şişir. O salona getdim dəfələrlə, o qadını tapıb etdiyinə görə cavab verməsini istəyirdim, amma özünü gizlədi, sonra da harasa köçüb getdi. Olan mənə oldu. Çox peşmanam, həkim olmayan birinə etdirdiyim üçün, salonda etdirdiyim üçün”.







## Bədəninizə nə yeridirlər?

Bədənə yeridilən yad maddə silikon - silisium qum tərkibli üzvi maddədir. Bu maddə həm gel, həm maye, həm də sərt formada olur. Müasir tibbdə bu maddə estetik məqsədlər üçün çənəyə, süd vəzilərinə, yanaqlara və bədənin müxtəlif yerlərində olan çuxur yerləri doldurmaq üçün istifadə edilir. Dodaqlara vurulan maddə isə dolğu vasitəsidir. Dolğu təbii və süni ola bilir, sovrulan və sovrulmayan.

İnkişaf etmiş ölkələrdə 90 faiz sovrula bilən dolğu maddələrindən istifadə edilir. Dolğu maddələri daha çox üz gəncləşdirmədə, üzdə olan estetik çatışmazlıqları, simmetrik qüsurları örtmək, dodaqları böyütmək, qırışlar olan nahiyənin altını doldurmaq məqsədilə də istifadə olunur. Əməliyyat yüngül prosedurdur, lakin ciddidir. Dolğu maddələrindən ən çox geoleron, laktik və kalsium hidroxlorid apasid turşusundan istifadə edilir. Bunlar sovrulan maddədir və 6-10 ay arasında toxumalarda yox olur və tətbiq edilən nahiyə əvvəlki vəziyyətinə qayıdır.

## Dolğu əməliyyatı gözəllik yox, tibbi prosedurdur

Əslində dolğu bu gün əksər qadınların, hətta kişilərin də istifadə etdiyi bir estetik prosedurdur. Prosedurdan istifadə etmək o qədər yayılıb ki indi hətta gözəllik salonlarında da müştərilərə tətbiq edilir. Bu bir tibbi prosedurdur və həkim nəzarətində həyata keçirilməlidir, lakin nə edənlər, nə də etdirənlər üçün bu xəbərdarlıq vacib hesab edilmir. Dolğu üçün gözəllik salonlarına üz tutulmasının əsas səbəbi isə ucuz qiymətdir.

Hər sima gözəldir, hər üz spesifik quruluşa malikdir. Üzümüzün davamlı olaraq mimika və jestlərlə hərəkət etdiyini nəzərə alsaq ora dolğu etdirməyin də təhlükəli ola biləcəyini düşünməliyik. Ona görə üzünüzdəki hansı nahiyənin doldurulması lazım olduğuna özünüz qərar verməyin. İşi peşəkarların öhdəsinə buraxmayanda ya mimikanı itirirsən, ya da iltihablanmış bir siman olur.

Üzünüzə, bədəninizə, hətta barmağınıza belə gözəllik salonlarında müdaxilə edilməsinə izin verməyin, əgər dolğunu mütləq etdirmək istəyirsinizsə bunu mütləq həkim etməlidir. Gözəllik salonları, bərbər kimi yerlərdə bu prosedurların aparılması əslində qadağandır. Bu qadağa sağlamlığınızı qorumaq üçündür. Tibbi müdaxilə üçün müəssisənin lisenziyasının olması mütləqdir, eyni zamanda bu proseduru edəcək şəxs də tibbi təhsilə sahib olmalıdır.

## İflic ola bilərsiniz!

Bədənizə yad maye vurulursa unutmayın ki, qısa müddətdə allergiya, laxtalanma, qanqrena, görmə və eşitmə itkisi, venadaxili yeridildikdə iflic kimi problemlər yaşaya bilərsiniz. Prosedurun həyata keçirildiyi yer lisenziyalı klinikadırsa və qəfil bir şey baş versə təcili tibbi yardım və tibbi cihazlar həyatınızı xilas edəcək. Amma gözəllik salonunda sizin bədəniz o maddəyə reaksiya versə, şoka girsəniz sizi xilas edəcək nə həkim olacaq, nə də tibbi müdaxilə.

Əgər israrla dolğu etdirmək fikriniz varsa bir neçə təcrübəli və etibarlı klinikalardan qiymətləri soruşun. Sizə bu proseduru çox aşağı qiymətə edəcəyini deyən klinikalar və həkimlər də ola bilər. Əgər çoxluğun eyni qiyməti dediyi proseduru bir klinika və ya həkim olduğunu iddia edən şəxs yarı qiymətinə təklif edirsə unutmayın ki, ya keyfiyyətsiz məhsuldan istifadə edir, ya da bu işi görmək səlahiyyəti yoxdur. Sağlamlığınız büdcənizdən daha vacibdir.

## Əyri ayaqlara, nahamar buruna müdaxilə edirlər

Sosial şəbəkələrdə gözəllik salonları, yağışdan sonra çıxan göbələklər kimi hər gün artan estetik mərkəzlər bir-biri ilə bəhsə girib. Kimisi azacıq donqar burnu dolğu ilə hamarlaşdırdığı görüntüləri paylaşır, kimisi əyri ayaqlara dolğu vurularaq düzləşdirməni nümayiş etdirir. Paylaşımlara verilən reaksiyadan, yazılan şərhlərdən görünür ki, tələbat da çoxdur. Estetik mərkəz adı altında fəaliyyət göstərən obyektlərdə edilən tibbi müdaxilələr daha çox olur. Əksəriyyətinin lisenziyası yoxdur, özünü estetik, kosmetoloq həkim kimi təqdim edən şəxslərin ali tibbi savadı olmur, qonşu ölkələrdə bir neçə dəfə seminar keçməklə özünü estetik-həkim adlandırır.

Burun korreksiyası adlı prosedurla burundakı əyriliyi, simmetrik nahamarlığı gel tətbiq edərək aradan qaldırırlar. Yəni bu prosedur burunun əməliyyatsız daha estetik hala gətirilməsi üçündür. Burnunu əməliyyat etdirə bilməyənlər, dikləşdirmək istəyənlər, burundakı kiçik boşluğu doldurmaq istəyənlər bu proseduru etdirirlər. 15-20 dəqiqləlik prosedurun 1.5-2 il qalıcılıq müddəti olur. Əgər tibbi bir mərkəzdə və peşəkar həkim tərəfindən edilsə problem yaranmaz, alkin gözəllik salonlarında orta təhsili belə tam olmayan ustaların əli ilə edilir. Nəticədə ya burnunuz çürüyür, ya da bədəninizdə anlamadığınız və sizi narahat edən proseslər gedir.

Ayaqlardakı simmetrik uyğunsuzluq da dolğu vasitəsi ilə düzləşdirilə bilər. Lakin bunu da işinin peşəkarına və steril kilinika şəraitində etdirmək vacibdir. Bir neçə il öncə Bakıdakı gözəllik mərkəzlərindən birində ayağına kosmetoloq tərəfindən süni gel vurulan qadın mətbuata açıqlama vermişdi, onun ayaqlarının kəsilmə təhlükəsi vardı. Dəfələrlə əmliyyata girmiş, ayaqlarındakı gel xaric edilmişdi, lakin gel artıq toxumalara nüfuz etdiyi üçün qadının hərəkəti məhdudlaşmış, iş qabiliyyətini itirmişdi. Məhkəmə çəkişməsi hələ də davam edir.

## Bəs sterilizasiya?

Harda olmasından asılı olmayaraq prosedur aparılan yerlərdə ilk növbədə sterilizasiya qaydalarına əməl edilməlidir. Müasir salonlarda isə adi qaynama vasitələrindən (!), əgər işləyirsə üzərində ”sterilizer” sözü yazılan alətdən istifadə edilir.




Ekspertlər hesab edir ki, bunlar virus infeksiyalarını məhv etmək üçün yetərli deyil. İstifadə edilən alətlərin steril olması, prosedurun icra edildiyi məkanın standartlara cavab verməsi vacibdir. Yazıda adıçəkilən xidmətləri göstərmək üçün peşəkar mütəxəssislərə və Səhiyyə Nazirliyindən alınan müvafiq sertifikatlara ehtiyac var, amma bu gün bu xidmətləri göstərən mərkəzlərin hamısı bu şərtlərə cavab verirmi?

Azərbaycan qanunlarına görə, Səhiyyə Nazirliyi gözəllik salonlarında yoxlamalar apara bilməz. Bu işlə prokurorluq məşğul olur, o halda ki şikayət olsun. Bu sahədəki xaotik vəziyyətin bir səbəbi də Tibb Universitetində kosmetologiya fakültəsinin olmamağıdır. Ona görə də hazırda ölkəmizdə bu sahə üzrə özünü mütəxəssis sayanların böyük əksəriyyəti, əslində, kosmetoloq-həkim deyillər.

**Lalə Mehralı**

TƏHLÜKƏ

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

(XVIII YAZI)

*(Əvvəli ötən saylarımızda)*



***Dünyaya gələn ət parçasının kainatın ən mürəkkəb şüurlu mexanizminə çevrilməsi möcüzəsənin arxasında kim və nə dayanır?***





”Allah sizi heç bir şey bilmədiyiniz halda analarınızın bətnindən çıxartdı və sizə qulaqlar, gözlər və ürəklər verdi ki, bəlkə şükür edəsiniz”. (Nəhl, 16/78)

Keçən yazıda insanın ana bətnində necə formalaşdığı haqda maraqlı məqamlardan danışdıq. Bu yazıda isə dünyaya gələn varlığın formalaşmasındakı möcüzələrə toxunacağıq. Hamiləlik dövrü başa çatdıqda, ani başlayan doğuş sancıları yeni həyatın başlanğıcından xəbər verir. Doğuş ağrılarını başladan və bu hadisənin ilk xəbərçisi olan oksitosin adlı bir hormondur.

Doğumun baş verməsi üçün doğuş zamanı uşaqlığın təsirli büzülməsi son dərəcə vacibdir. Bu hormon uşaqlıq yolunu təşkil edən əzələlərin çox güclü büzülməsinə səbəb olur. Ancaq bunu 9 ay 9 günlük müddət keçdikdən sonra edir. Nə tez, nə də gec... Çünki hər iki vəziyyət körpənin həyatını təhlükəyə ata bilər.

Qadın hamiləliyinin son anlarına çatdıqda müxtəlif orqanlar uşaqlığın ağzına doğru ifrazat ifraz etməyə başlayır. Beləliklə, oradakı toxumalar bu cərəyanlar sayəsində yumşalır və elastik olur. Uşağın doğulmasını və ana bətnindən çıxmasını asanlaşdırır. ”Təsadüf” nəticəsində bu ifrazatlarda uşağı müxtəlif xəstəliklərin mikroblarından qoruyacaq kimyəvi maddələr vardır.

Beləliklə, yüksək dəqiqliklə həyata keçən uzun və mürəkkəb proseslərdən sonra insan bioloji və ruhi olaraq bir bədəndə maddi dünyada peyda olur. Bu andan etibarən ana orqanizmində heyrətamiz dəyişikliklər baş verir.

Yeni doğulan körpənin qidalanması üçün ana südünün ifraz olunması prosesi başlayır. Uşağın böyüməsi ilə paralel olaraq təkcə südün miqdarı deyil, bu möcüzəli mayedəki kimyəvi maddələrin tərkibi də dəyişir. Hətta körpənin oğlan və qız olmasından asılı olaraq südün təkibi və həcmi fərqli olur. Südün bu dəyişməsi uşağın davamlı inkişafı, orqanlarının formalaşması və toxumalarının möhkəmlənməsi üçün ən uyğun şəkildə baş verir.

Körpə üçün hazırlanan ana südü müxtəlif xəstəliklərə qarşı anticisimləri ehtiva edir. Ana südünün tərkibi körpənin ehtiyac duyduğu zülalları o qədər ustalıqla seçir ki, ana bədəni zəif və ya güclü olsun, körpəsinin ehtiyac duyduğu bütün zülalları təmin etməlidir. Çünki süd vəzinə yerləşdirilən ”kompüter sistemi” körpənin ehtiyac duyduğu bütün maddələri çox yaxşı bilən bir kimya fabriki kimidir. Ana və körpə arasındakı ünsiyyət, geniş araşdırmalar nəticəsində ortaya çıxan qəribə bir telepatik hadisədir. Körpənin mədəsində süd bitdikdə və turşuluq yarandıqda, ana südü refleksli olaraq ayrılır. Bu telepatik biologiyanın möcüzəsidir. Körpələr ac olanda ana bunu çox yaxşı hiss edir.

İndi isə orqanizmi proqramlaşdıran növbəti möcüzəyə keçək. Canlıların bədənləri ilə bağlı bütün məlumatlar onların hüceyrələrindəki DNT adlı molekullarda kodlanır. DNT molekulları hər hüceyrənin nüvəsində olan nəhəng molekullardır. DNT canlıya xas olan xüsusi ardıcıllıqla kodlaşdırılmış 4 fərqli tipdə olan nukleotid adlanan yüz minlərlə kiçik molekuldan əmələ gəlir. Bu, insanlar üçün də eynidir. İnsanların digər canlılardan fərqli olduğu kimi, hər bir insanın bir-birindən fərqli olmasının səbəbi də DNT-sindəki bu xüsusi ardıcıllığa görədir. DNT-ni təşkil edən nukleotidləri əlifbanın hərfləri ilə müqayisə edə bilərik. Dörd fərqli nukleotid olduğu üçün DNT molekulunu 4 hərfdən ibarət əlifba ilə yazılmış nəhəng ensiklopediya adlandıra bilərik.

DNT-dəki hərflərin düzülmə sırası insanın quruluşunu ən xırda detallarına qədər müəyyən edir. Boy, göz, saç və dəri rəngi kimi xüsusiyyətlərin yanında tək bir hüceyrənin DNT-sində bədəndəki 206 sümük, 600 əzələ, 10.000 eşitmə sinir şəbəkəsi, 2 milyon optik sinir şəbəkəsi, 100 milyard sinir hüceyrəsi və ümumilikdə 100 trilyon hüceyrənin planları mövcuddur. Əgər DNT-dəki bu genetik məlumatı kağız üzərində yerləşdirməyə cəhd etsəydik, hər biri təxminən 500 səhifəlik 900 cilddən ibarət nəhəng bir kitabxana yaratmalıyıq.

Yəni, hər hüceyrənin nüvəsində qədər insan bədəninin funksiyalarını idarə edəcək 1 000 000 ensiklopediya səhifəsi qədər kodlaşdırılmış məlumat var. Müqayisə üçün qeyd edək ki, hətta dünyanın ən böyük ensiklopediyalarından biri olan 23 cildlik ”Britannica Ensiklopediyası”nın cəmi 25 min səhifəsi var. Dünyanın ən böyük ensiklopediyasından 40 dəfə böyük olan və milyonlarla məlumatı özündə cəmləşdirən məlumat anbarı mikroskopik hüceyrənin içərisində çox kiçik nüvədəki molekulda gizlənir. Bu, dünyada bənzəri olmayan, 920 cildlik nəhəng ensiklopediya deməkdir. Bu misroskopik ensiklopediyada çox nəhəng həcmdə- təxminən 5 milyard fərqli məlumat var.

Üstəlik, bu qeyri-adi məlumat dünyanın ilk yarandığı gündən bəri yaşayan yüz milyardlarla insanın hər birinin 100 trilyon hüceyrəsində eyni şəkildə mövcud olmuşdur.

İnsan bədənində 200 min genin olduğunu nəzərə alsaq, bu genləri təşkil edən milyonlarla nukleotidin təsadüfən düzgün ardıcıllıqla əmələ gəlməsi qeyri-mümkündür.

Nüfuzlu alim, bioloq Frank Salisbury bu qeyri-mümkünlük haqqında belə deyir:

”Orta ölçülü bir protein molekulunda təxminən 300 amin turşusu var. Buna nəzarət edən DNT zənciri təxminən 1000 nukleotiddən ibarət olacaqdır. Bir DNT zəncirində 4 növ nukleotid olduğunu xatırlasaq, 1000 nukleotid ardıcıllığı 41000 fərqli şəkildə mövcud ola bilər. Kiçik bir loqarifmin hesablanması ilə tapılan bu rəqəm ağlın dərk edə bilməyəcəyi qədər kənardadır”.

Bu rəqəm 10 rəqəminə 620 sıfır əlavə edilməklə əldə edilir. 10-dan sonra 11 sıfır 1 trilyonu təmsil etdiyi halda, 620 sıfır olan bir rəqəmi təsəvvür etmək həqiqətən mümkün deyil.

Nukleotidlərin təsadüfən bir araya gələrək RNT və DNT-ni əmələ gətirməsinin qeyri-mümkünlüyü fransız təkamülçü alim Paul Auger tərəfindən belə ifadə edilir:

”Təsadüfi kimyəvi hadisələrlə nukleotidlər kimi mürəkkəb molekulların meydana çıxması halında, məncə, 2 mərhələni aydın şəkildə ayırd etməliyik; fərdi nukleotidləri istehsal etmək- mümkün ola bilər və onları çox xüsusi ardıcıllıqla birləşdirmək. Bu ikinci mümkün deyil”. Paul Auger, Theory of Physics and Biology, 1970, s. 118

Bu qeyri-mümkünlük haqqında Stanley Miller və Francis Crick'in Kaliforniya Universitetindən olan həmkarı, məşhur təkamülçü alim Dr. Leslie Orgel, ”həyatın RNT dünyasında başlamış ola biləcəyi” ehtimalını izah etmək üçün ”ssenari” ifadəsini işlədir. Orgel ”American Scientist” jurnalının 1994-cü ilin oktyabr nömrəsində dərc olunmuş ”Yer üzündə həyatın mənşəyi” başlıqlı məqaləsində bu RNT-nin hansı xüsusiyyətlərə malik olması lazım olduğunu qeyd edir və bunun mümkünsüzlüyünü belə izah edir:

”Bu ssenarinin baş verməsi üçün ibtidai dünyadakı RNT-nin bu gün mövcud olmayan 2 xüsusiyyəti olmalıdır: zülalların köməyi olmadan özünü kopyalaya bilməsi və zülal sintezinin hər mərhələsini həyata keçirə bilməsi. Son dərəcə mürəkkəb quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) biri olmadan digərini əldə etmək mümkün deyil. Buna görə də belə nəticəyə gəlmək məcburiyyətində qalırıq ki, həyatın kimyəvi yollarla yaranması mümkün deyil”. (Leslie E. Orgel, ”The Origin of Life on the Earth”, Scientific American, oktyabr 1994, cild 271, səh. 78).

Bu faktı etiraf edən xeyli sayda nüfuzlu alim vardır;

- ”DNT katalitik zülalların və fermentlərin köməyi olmadan öz işini yerinə yetirə, o cümlədən yeni DNT istehsal edə bilməz. Bir sözlə, zülallar DNT olmadan mövcud ola bilməz, lakin zülallar olmadan da DNT əmələ gələ bilməz”. John Horgan, ”Başlanğıcda”, Scientific American, cild. 264, fevral 1991, səh. 119.
- ”Genetik məlumat onu şərh edən mexanizmlərlə (ribosomlar və RNT molekulları) necə meydana gəldi? Bu sual qarşısında özümüzü cavabla yox, heyrət və təəccüb hissləri ilə qane etməliyik”. Douglas R. Hofstadter, Gidel, Escher, Bach: An Eternal Golden Braid, New York: Vintage Books, 1980, s. 548.

Kök hüceyrələr insan bədənində təxminən 200 növ hüceyrənin mənbəyidir. Bir-birinin surəti olan kök hüceyrələr bir müddət sonra birdən-birə digər hüceyrələrdən fərqlənməyə başlayır. Bu fərqiləşmə ilə bədəndəki toxumalar kök hüceyrələrdən inkişaf edir. Enerji verən yağ hüceyrələri, yara sağaldan hüceyrələr və damar hüceyrələri bu toxumalardan bir neçəsidir.

Bölünmə yolu ilə çoxalmanın baş verməsi üçün ilk hüceyrə özünün surətini çıxarmalı və bu nüsxələr də öz növbəsində bölünərək oxşar nüsxələr çıxarmalıdır ki, zamanla eyni hüceyrədən milyonlarla nüsxə yarana bilsin. Lakin bütün bu proses göründüyündən daha mürəkkəb və sirlidir. Çünki bölünmə prosesinin bir mərhələsində kopyalanan hüceyrələrdən bəziləri başa düşülməyən bir nizama cavab olaraq bacı-qardaşlarından fərqlənməyə başlayır və tamam başqa bir quruluşa sahib olurlar.

Beləliklə, ortaq bir ana hüceyrədən olan hüceyrələr zamanla bölünmə prosesi ilə fərqlənir və ayrı toxumalar və orqan sistemləri meydana gətirirlər. Bəziləri işığa həssas olan göz hüceyrələrini, bəziləri qaraciyər hüceyrələrini, bəziləri isti, soyuğu və ya ağrını qəbul edən sinir hüceyrələrini və ya səs vibrasiyasını hiss edən hüceyrələr əmələ gətirir. Bəs belə bir əmək bölgüsü necə yaranır? Bir hüceyrə tək başına göz hüceyrəsi olmağa qərar verə bilmədiyi üçün bu qərarı kim verir?

Bu hüceyrələrin malik olduğu DNT və ya genetik məlumat eynidir. Fərq onların istehsal etdikləri zülallardadır. Fərqli zülallar istehsal edən 2 hüceyrə də quruluş baxımından fərqlidir. Necə olur ki, bu qardaş hüceyrələr eyni hüceyrədən əmələ gəlsələr və eyni genetik məlumatlara sahib olsalar da, birdən-birə fərqli zülallar istehsal etməyə, fərqli quruluş və xüsusiyyətlər nümayiş etdirməyə başlayırlar? Bir-birinin tam surəti olmasına baxmayaraq, bir-birindən fərqli zülalların əmələ gəlməsi əmrini kim verib?

Təkamülün ən qatı müdafiəçilərindən biri olan alman alimi Hoimar von Ditfurth ana bətnindəki sirli inkişafdan belə danışır:

”Tək bir yumurta hüceyrəsinin bölünməsi nəticəsində bir-birindən bu qədər fərqli saysız-hesabsız hüceyrələr meydana gəlməsi və bu hüceyrələr arasında necə kortəbii əlaqə və əməkdaşlığın meydana gəldiyi alimlər üçün ən anlaşılmaz hadisələrdəndir”. Hoimar Von Dithfurth, ”Dinozavrların səssiz gecəsi”, Alan nəşriyyatı, c. 2, s.126.

Dünyanın ən böyük alimləri belə tək bir hüceyrənin necə inkişaf edərək müxtəlif orqan və toxumaları meydana gətirdiyini, 100 trilyon hüceyrəli son dərəcə mürəkkəb şüurlu bir mexanizmə- insana çevrildiyini izah edə bilmir...

”O, yaradan, kamilləşdirən, surət və surət verən Allahdır. Ən gözəl adlar Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, Onu mədh edər. O, Qüdrətlidir, Müdrikdir. (Quran, Həşr surəsi, 24).

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
9 aprel
2025-ci il

# Dələduzluq hansı halda cinayət məsuliyyəti yaradır?



## Hüquqşünas mühüm detalları açıqladı

”Dələduzluq mülkiyyət əleyhinə yönəlmiş cinayətlərin ən çox yayılan növlərindən biri olmaqla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (CM) 178-ci maddəsində nəzərdə tutulmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında Vəkillər kollegiyasının üzvü, Bakı şəhəri 31 saylı Vəkil Burosunun vəkili Aysel Əhmədova deyib.



Aysel Əhmədova sözlərinə belə davam edib: ”Başqa talama cinayətlərindən fərqli olaraq dələduzluq cinayəti aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə törədilir və əmlak sahibi öz əmlakını və ya ona olan hüququnu başqa şəxslərə yalan vədlərin təsiri altında könüllü surətdə verir.

Qeyd edək ki, dələduzluq cinayətlərinə dair işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu 11.06.2015-ci il tarixli ”Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Qərar qəbul etmişdir. Həmin Qərarın 1-ci bəndinin 2-ci abzasına əsasən ”Törədilmiş əməl o halda CM-nin 178-ci maddəsində nəzərdə tutulmuş dələduzluq, yəni etibardan sui-istifadə və ya aldatma yolu ilə özgə əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə hesab edilir ki, şəxsin niyyəti əmlakı ələ keçirərkən və ya əmlak hüquqları əldə edərkən hər hansı öhdəliyin yerinə yetirilməsinə deyil, özgənin əmlakının əvəzsiz və qanunsuz olaraq öz mülkiyyətinə keçirilməsinə, yaxud da əmlak hüquqlarının əldə edilməsinə yönəlmiş olsun”.

Göründüyü kimi dələduzluq cinayətinin üsulları aldatma və etibardan sui-istifadə etmədir. Bu zaman aldatma dedikdə, özgə əmlakını (əmlak hüququnu) ələ keçirmək niyyətində olan şəxs tərəfindən bilə-bilə yalan, həqiqətə uyğun olmayan məlumatların verilməsi və ya həqiqi məlumatların gizlədilməsi, yaxud da əmlakın ələ keçirilməsinə yönəlmiş qəsdən törədilən başqa hərəkətlərin edilməsi (məsələn, əqdin predmeti olan saxta əşyaların və ya saxta sənədlərin təqdim edilməsi, onların əldə edilməsi, malların alınması zamanı aldadıcı üsullardan istifadə edilməsi və ya hesablaşma görüntüsünün yaradılması və sair) başa düşülür.

Etibardan sui-istifadə etmə dedikdə isə, əmlakı ələ keçirmək və ya əmlaka olan hüququ əldə etmək məqsədi güdən şəxs tərəfindən əmlakın mülkiyyətçisi, bu əmlaka sahiblik edən və ya sərəncam vermək hüququ olan şəxslə yaranmış etibarlı münasibətlərdən istifadə olunması başa düşülür.

Dələduzluğun törədilməsi zamanı aldatma və ya etibardan sui-istifadə etmə yalnız bunu dərk edərək əmlakı və ya əmlaka olan hüququ təqsirkara könüllü olaraq vermiş fəaliyyət qabiliyyətli şəxsə qarşı tətbiq edilə bilər. Bu baxımdan müəyyən səbəblərdən (məsələn, azyaşlı, alkoqol və narkotik sərxoşluğu vəziyyətində olması, psixikasının pozulması və sair) baş verən hadisələrin mahiyyətini, yəni əmlakının əlindən çıxmasını dərk edə bilməyən şəxsin aldadılaraq əmlakının ələ keçirilməsi dələduzluq yox, oğurluq (CM-nin 177-ci maddəsi) kimi qiymətləndirilməlidir”.

*Ayşən Vəli*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Maşınını səkidə saxlayanlara XƏBƏRDARLIQ - 60 manat və 2 bal CƏRİMƏ...



**“Bakı Şəhər DYP İdarəsi tərəfindən piyadaların iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması və qəzaların sayının minimuma endirilməsi istiqamətində mütəmadi olaraq nəzarət-profilaktiki tədbirlər həyata keçirilir. Piyada qəzalarının baş verməsinə səbəb olan amillərdən biri də nəqliyyat vasitələrinin səkilərdə park edilməsidir.”**

Bu barədə Bakı Şəhər DYP İdarəsinin sürücülərə müraciətində qeyd olunub. Müraciətdə qeyd olunur ki, mövcud qanunvericiliyin tələbinə əsasən səkilərdə nəqliyyat vasitələrinin dayanması və durması qadağandır və qayda pozuntusu aşkar edildiyi halda sürücü barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 346.9-cu maddəsinə əsasən 2 cərimə balı və 60 manat məbləğində cərimə tətbiq ediləcək. ”Odur ki, sürücülərdən dayanma və durma qaydalarına ciddi şəkildə riayət etmələrini və yol hərəkətinin ən müdafiəsiz iştirakçıları olan piyadalara maneə yaratmamalarını xahiş edirik”, - deyə müraciətdə bildirilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**